

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 44 (24.426)

2 noyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Kazan sammiti: *Azərbaycan növbəti siyasi qələbəni – sülhü yaxınlaşdırır*




*XVI BRICS sammiti Azərbaycanın dünya iqtisadiyyatında, beynəlxalq ticarət-logistika sistemində rolunun mühümlüyünü göstərməklə yanaşı, bölgədə sülhə, siyasi dialoqa xidmət missiyasının növbəti uğuru kimi də yadda qaldı. Belə ki, sammit çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirildi, dialoq zamanı tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraqdoğuran digər məsələləri müzakirə etdilər. Eyni zamanda iki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün qədər tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verildi. Sammitdən sonra hər iki dövlət başçısı tərəfindən Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamənin təsdiq edilməsi əvvəlki platformalardan fərqli olaraq Kazan görüşünün daha səmərəli, məhsuldar keçdiyindən xəbər verməklə atılan addımların yaxın gələcəkdə müsbət praktik nəticələr göstərəcəyinə əminlik yaratdı...*

Səhifə ➡ 2

## “İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür”



Səhifə ➡ 3

## “Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu” mövzusunda konfransın açılış tədbiri keçirilib



Səhifə ➡ 3

## Naxçıvanda “GreenFest” keçirilib



Səhifə ➡ 5

## Naxçıvan Dövlət Universitetində Qərbi Azərbaycandan olan gənclərin Naxçıvan forumu olub



Səhifə ➡ 5

## Naxçıvanda doğum günü oktyabr ayında olan şəhidlərin xatirəsi anılıb



Səhifə ➡ 5

## Bayrağını yüksəltməyə, cümlə gənclər müştaqdır



Səhifə ➡ 6

## Onlara zəhmət adamı deyirlər

*Onlar ilin bütün fəsillərində alın tərini torpağa qatanlar, hər səhər Günəşi salamlayıb, dan ulduzunu seyr edən zəhmətkeşlərdir. “Zəhmət adamı”, “Torpaq insanı” da deyirik onlara.*



Səhifə ➡ 9




# Kazan sammiti: *Azərbaycan növbəti siyasi qələbəni – sülhü yaxınlaşdırır*

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan zamanında Ermənistanla dinc şəkildə ədalətli sülhə nail olmaq, bölgədə barışıq yaratmaq üçün kifayət qədər çalışsa da, təəssüf ki, qarşı tərəf bunun tam əksinə, ziddinə getdi. Və nəhayət, otuzillik danışıqların nəticəsizliyindən sonra əks-hücumla başlanılan 44 günlük Vətən müharibəsi, 24 saata yaxın lokal xarakterli antiterror tədbirləri ilə müzəffər xalq-dövlət-ordu birliyi əzəli torpaqların azadlığını, ölkənin suverenliyini tam təmin etməklə "Ən böyük müdafiə hücumdur" tendensiyasının həqiqiliyini bir daha ortaya çıxartdı. Nəticə etibarilə, Prezident İlham Əliyevin siyasi qətiyyəti, iradəsi əsasında bu gün diplomatiya sahəsində daim hücumda yer alan Azərbaycan regionun geosiyasi mənzərəsini öz xeyrinə dəyişməklə artıq addım-addım növbəti siyasi qələbəni – sülhü də yaxınlaşdırır. Dövlət başçısı dəfələrlə çıxışlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam təmin olunmasının regionda sülhə, barışığa töhfə verdiyini, başqa sözlə, sülhə müharibə yolu ilə nail olduğumuzu vurğulayıb:

***"...biz sülhə müharibə yolu ilə nail olmalı idik və 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik. Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü".***

Otuzillik müsbət nəticə verməyən danışıqlar prosesi göstərdi ki, Qərbin siyasi oyunbazları dırnaqarası tarixi ənənələrindən, yəni hər bir bölgədə münaqişə ocağı yaratmaqla oranı istədikləri kimi idarə etmək iddialarından əl çəkən deyillər. Onları nə qaçqın və məcburi köçkünlərin taleyi, nə də bir ölkənin maddi-mədəni sərvətlərinin xaincəsinə talan edilməsi maraqlandırır. Müstəqil Azərbaycanın güclənməsini, regionda söz sahibi olmasını istəməyən bu çirkin diplomatiyanın müəllifləri üçün, əslində, zəif, onun-bunun qoltuğuna qısılan Ermənistanın düşdüyü səfil vəziyyət də maraqlı deyildi. Əlqərəz, "görünən kənd bələdçi istəməz". Ancaq təəssüf ki, "bu kəndin" "başbilənləri" həmin mənzərəni çox gec gördü, gerçəkliyi gec anladı və artıq bu müddətdə Azərbaycanın bölgə üçün yaratdığı onlarla fürsəti qaçırmaqla bütün uğurlu işlərə 30 il geridən başlamaq məcburiyyətindədir. Nəhayət, bu gün bölgədə tərəqqiyə, yüksəlişə nail olmağın Azərbaycanla münasibətlərin normallaşmasından keçdiyini dərk edən Ermənistan əməli addımlar atmağa başlayır. Bu ilin əvvəlində Qazaxın 4 kəndinin dinc şəkildə azad edilməsi ilə praktik start götürən sərhədlərin delimitasiyası, demarkasiyası prosesi artıq addım-addım ən əsas məsələyə – sülh sazişinə doğru gedir. Ölkə başçısı İlham Əliyev də Azərbaycanın bu nailiyyətini yüksək qiymətləndirərək Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınlaşdığımızı, Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülhün bu qədər yaxın olmadığını vurğulayıb. Ötən günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hökumətin iclasının yekunlarına dair brifinqdə də bu məsələyə xüsusi toxunaraq Qarabağın 30 illik işğaldan azad edilməsi ilə Cənubi Qafqazda uzunmüddətli sülh üçün unikal şans yarandığını deyib. Türkiyə lideri Ankaranın qardaş Azərbaycanın və Ermənistanın səmimi addımlarını diqqətlə izlədiyini qeyd edib: "Biz ümid edirik ki, ən tez zamanda yaxşı xəbərlər alacağıq".

Bəli, qarşı tərəf, nəhayət ki, Qərbin oyunlarından uzaq düşməyə, haqq-ədalət yoluna qayıtmağa, daha doğrusu, qaytarılmağa yaxındır. Əgər belə olmasaydı, ötən günlərdə Ermənistan parlamentinin sədri Alen Simonyan Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olduğunu media vasitəsilə açıq şəkildə bəyan etməzdi: "Mən başa düşürəm ki, hər bir sözdən yapışıb, bunun üzərində tezislər qurmaq, nəyi isə sübut etməyə çalışmaq olar, amma fakt faktlığında qalır: bizim haqqında danışdığımız ərazi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olub və bu, indi də belədir". Məhz bu baxımdan oktyabrın 24-ü Avropa Parlamentinin "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı sərsəm qətnaməni qəbul etdiyi vaxtda Kazanda iki ölkə arasında sülhə nail olmaq yolunda səmərəli görüşün baş tutmasını Qərbin növbəti fiaskosu kimi dəyərləndirmək olar.

Ölkə başçısının qeyd etdiyi kimi, otuzillik işğaldan sonra Ermənistan aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər. Bəli, ümidvarıq ki, Ermənistan BRICS sammitindəki addımını daha da irəli aparacaq, yalançı havadarlarının oyununa getməyəcək, keçmişdəki səhvlərdən dərs çıxararaq sülhdən başqa yolunun olmadığını tam mənada dərk edəcək. Və beləliklə, uzun zamandır, regionda gözlənilən növbəti ədalətli qələbə – sülh əldə olunacaq. Azərbaycanın ev sahibliyi ilə reallaşan, ümumbəşəri, qlobal məsələnin həlli üçün sülhə çağırış missiyası daşıyan COP29 bu baxımdan əla fürsət ola bilər...

**Nail ƏSGƏROV**





# "İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür"

**Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanı özünə Vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyasına söykənən Azərbaycançılıq ideologiyası ölkəmizi ən ali zirvələrə daşımaqdadır. Məhz illərdir, uğurla davam etdirilən Ulu Öndər siyasi-ideoloji xəttinin nəticəsidir ki, xalq-dövlət-ordu birliyi sayəsində vətənpərvər ruhda yetişən gəncliyin şücaəti ilə 2020-ci ilin 44 günündə parlaq zəfər qazandıq. Vətən müharibəsində əldə olunan Böyük Qələbə və ötən il ərazi bütövlüyümüzün tam təmin olunması ilə regionda geosiyasi mənzərə tamamilə Azərbaycanın xeyrinə dəyişilib. Bununla paralel yeni reallığı həzm edə bilməyən bəzi siyasi dairələr tərəfindən məlum təzyiqlərin, təhdidlərin, ideoloji təhlükələrin də miqyası, əhatə dairəsi genişlənib. Ancaq Prezident cənab İlham Əliyevin rəhbərliyi, hüquq-mühafizə orqanlarının peşəkar iş prinsipi ilə bütün ideoloji təxribatların qarşısı vaxtında qətiyyətlə alınır. Ölkə başçısı da dəfələrlə çıxışında ideoloji təhlükəsizliyin təmininin dövlət siyasətinin əsas prioritetləri sırasında olduğunu vurğulayaraq bu yöndəki fəaliyyəti yüksək qiymətləndirib.**

***"Digər vacib vəzifələr ideoloji təhlükəsizliklə bağlıdır və burada da biz daim diqqətli olmalıyıq. Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Düzdür, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır. İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür. Ancaq bununla bərabər, bu bizi sakitləşdirməməlidir. Ona görə biz buna daim hazır olmalıyıq və bizə qarşı aparılan çirkin oyunları ifşa etməliyik, necə ki edirik, həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media məkanında".***

Dünyaya ağalıq etməyə çalışan hegemon dövlətlər ənənəvi olaraq ölkələri, millətləri təsir altında saxlamaq, onların maddi sərvətlərinə yiyələnmək üçün ən asan, təsirli mexanizm kimi, ideoloji təzyiqdən istifadə edirlər. Zaman-zaman xalqlar içərisində fikir ayrılıqları, daxili çaxnaşmalar yaratmaqla ölkədə hakimiyyət çevrilişi edərək dövlətçilik ənənələrini məhv etmək, qondarma rejimlər formalaşdıraraq idarəçiliyi ələ almaq bu terrorun əsas hədəfidir. Xalqların azadlıq hüquqlarını heçə sayaraq onlar üzərində müstəmləkəçi siyasəti yürütməklə, təəssüf ki, bəzi Qərb ölkələri hələ də qədim və orta əsrlərdəki mövcud ənənələrini qorumağa müvəffəqdirlər. Bu baxımdan ən tipik nümunə özünü "demokratik" dövlət kimi tarixin səhifələrinə yamamağa çalışan Fransanı qeyd etmək olar. Firəngistanda hökmranlıq edən diktator rejim çirkin yollarla Afrika ölkələrinin təbii resurslarını talayır, Yeni Kaledoniya xalqını bütün imtiyazlardan məhrum edir, azadlıq hüquqlarını kobud şəkildə tapdalayaraq onlar üzərində kolonalizm siyasəti yürüdür. Yüzilliklər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradaraq həmin ərazilərdə öz idarəçiliyini gücləndirən bu Qərb diktaturası üçün BMT Nizamnaməsi, insan hüquqlarını tənzimləyən sənədlər heç bir praktik əhəmiyyət kəsb etməyən, lüzumsuz kağız parçasıdır.

Belə olmasaydı əgər bu günədək BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən Martinik xalqına daha geniş özünüidarə və ya müstəqillik hüququ verilərdi. Ancaq Fransa nəinki həmin insanların hüquqlarına hörmət etmir, onların mədəniyyətlərini, mənəviyyatlarını məhvə sürükləməkdən, torpaqlarına ziyan vurmaqdan, sərvətlərini talamaqdan belə çəkinmir. Hətta əhali arasında zəhərli maddələr yayaraq müxtəlif ciddi xəstəliklər yaratmaqla insanlıq əleyhinə ümumbəşəri terror aktı da törədir. Dünyanın "haqq, ədalət carçıları", demokratiya, hüquq təsisatları da buna seyrçi qalır. Təəssüf...

Cənubi Qafqazda da eyni məqsədə fərqli formada nail olmaq istəyən müstəmləkəçi rejim illərdir, Qarabağda münaqişəni dondurmaq məqsədi güdən ATƏT-in Minsk qrupu kartından maksimum yararlanmaq üçün dəridən-qabıqdan çıxırdı. Di gəl ki, bu kartı da sonadək yaxşı xal qazandırmadı bu siyasi oyunbaza. Azərbaycanın apardığı uğurlu diplomatiya, hərbi quruculuq siyasəti sayəsində illərin ədalətsiz hökmünə xitam verildi, Qarabağda regional təhlükəsizliyə təhdid sayılan separatizmin kökü kəsildi. Vətən müharibəsindən sonra Qərb siyasi dairələrinin əvvəllər pərdəarxası həyata keçirdikləri ideoloji terror daha açıq müstəviyə keçdi.

Xalqların canına susamış bu cinayətkarlar əsas fəaliyyət istiqaməti kimi, effektivliyi yüksək, təsir dairəsi geniş olan müxtəlif media subyektlərindən, sosial şəbəkələrdən yararlanırlar. İctimaiyyətin hər bir nümayəndəsinə açıq olan həmin platformalarla dezinformasiyalar, qeyri-əxlaqi ünsürlər yayaraq insanları öz mənəvi dəyərlərindən uzaqlaşdırmağa, xüsusilə də gəncləri milli düşüncədən ayırmaqla yad ideologiyanın əsirinə çevirməyə çalışırlar. Təqdirəlayiq haldır ki, bütün bu xarici təhdidlərə, qlobal problemlərə qarşı dövlətimiz tərəfindən güclü siyasi, ideoloji iş aparılır. İstər məktəblərdə, ali təhsil ocaqlarında, istərsə də media subyektlərində maarifləndirici xarakterli tədbirlər reallaşdırılır. Hər il Şuşada keçirilən Qlobal Media Forumu bu baxımdan nəinki ölkəmizdə, ümumilikdə, regionda nümunə gücündədir. Dünyanın onlarla ölkəsinin, informasiya agentliklərinin əməkdaşları Azərbaycanın bu qədim şəhərində bir araya gələrək yalan məlumatların ifşasına, dezinformasiyaya qarşı mübarizəyə dair müzakirələr, fikir mübadilələri aparırlar. Ölkə başçısı cənab İlham Əliyev şəxsən həmin tədbirdə iştirak edərək jurnalistlərin suallarını cavablandırır, bu qlobal məsələnin həllində vacib amilləri diqqətə çatdırır, məsələlərə obyektiv siyasi şərhlər verir, Qərbin çirkin oyunlarını mükəmməl şəkildə ifşa edir: ***"Qoşulmama Hərəkatının bir çox üzvü keçmişdə kolonializmin qurbanı olmuşdur. Milyonlarla insan bunun qurbanı olmuşdur və bəzi ölkələr hələ də bundan əziyyət çəkir. Məsələn, Qəmər adaları, Mayot adası. Hələ də onlar kolonial idarəçilik altındadır. Biz bu ölkələrə kömək etmək istəyirik ki, keçmişin bu iyrənc qalığından özlərini azad edə bilsinlər. Təəssüflər olsun ki, Fransa hökuməti yenə də mediadan istifadə edərək bizi ittiham edir ki, guya biz onların daxili işlərinə qarışırıq. Ancaq bu, qətiyyən belə deyil. Biz bunu Avropa İttifaqında, BMT-də anti-Azərbaycan mövqeyi ilə əlaqələndiririk. Onlar Azərbaycana qarşı soyuq müharibəyə başlayıblar. Biz bunu ona görə edirik və əminik ki, Fransanın etdikləri iyrəncdir, qəbuledilməzdir və buna son qoyulmalıdır"***.

✍ **Nail ƏSGƏROV**

# "Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu" mövzusunda konfransın açılış tədbiri keçirilib



Oktyabrın 28-də "Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu" mövzusunda konfransın açılış tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüb, ehtiramlarını ifadə ediblər.

Sonra Heydər Əliyev Muzeyi ziyarət edilib. Ziyarətçilər Ulu Öndərin mənalı ömür yolunu və zəngin ictimai-siyasi fəaliyyətini əks etdirən dəyərli eksponatlara, o cümlədən muzeydə yeni yaradılan "Heydər Əliyev və Azərbaycanın yeni enerji strategiyası" bölməsinə baxıblar.



*Ardı 4-cü səhifədə*




Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş sərgiyə baxış zamanı məlumat verilib ki, sərgidə mövzuya həsr olunmuş elmi ədəbiyyatlar, dövri mətbuat və digər nəşrlər, rəsm və əl işləri nümayiş etdirilir.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli dövlət başçımızın 2023-cü il dekabrın 30-da “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzaladığını, Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğu nəzərə alınaraq silsilə yubiley tədbirləri keçirildiyini bildirib. Vurğulayıb ki, “Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu” mövzusundakı konfrans da bu tədbirlərin davamı kimi mühüm əhəmiyyət kəsb edir. Çünki Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi böyük əhəmiyyətə və mühüm strateji-coğrafi mövqeyə malikdir.

Səlahiyyətli nümayəndə qeyd edib ki, 5 min ildən artıq şəhərsalma mədəniyyətinə və dövlətçilik tarixinə malik olan Naxçıvan ötən 100 ildə gərgin hərbi-siyasi mübarizələrin mərkəzinə çevrilib. Bir əsrdə Naxçıvan iki dəfə ağır sınaqlar qarşısında qalıb. Əgər XX əsrin əvvəllərində Naxçıvan muxtariyyət statusu alaraq çətin hərbi-siyasi mübarizələrin nəticəsi olaraq işğaldan qorunmuşdursa, 1990-1993-cü illərdə Ümummilli Liderimiz, müdrik dövlət xadimi Heydər Əliyevin şəxsi nüfuzu, gərgin siyasi mübarizəsi və qətiyyəti nəticəsində bu qədim diyarımız erməni işğalından, muxtariyyəti isə ləğv olunmaq təhlükəsindən



xilas olub.

Fuad Nəcəfli qeyd edib ki, 100 illik muxtariyyət tariximizin ötən 21 illik inkişaf və tərəqqi dövrü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. Bu dövrdə Naxçıvanda mühüm infrastruktur tədbirləri həyata keçirilib, sosial-iqtisadi inkişaf təmin edilib, muxtar respublikanın müdafiə potensialı gücləndirilib. Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvan Muxtar Respublikası ölkəmizin digər bölgələri ilə quru əlaqəsini də təmin edəcəkdir. Ölkə Prezidentinin diqqət və qayğısının nəticəsi olaraq Naxçıvanda müasir idarəetmə modelinin tətbiqi, aparılan institusional islahatlar, nəqliyyat imkanlarının genişləndirilməsi, bütün bunların yekunu olaraq isə “Naxçıvan Muxtar Respublika-



sının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyub. Ölkə Prezidentinin rəhbərliyi ilə Naxçıvan muxtariyyətinin 100 illiyini uğurla başa vurur. Qarşıda daha böyük hədəflər vardır. Əsas vəzifəmiz ölkəmizin ümumi inkişafının tərkib hissəsi kimi Naxçıvanın da kompleks inkişafına nail olmaq, daha böyük nailiyyətlər qazanmaqdır. Hesab edirik ki, istər Zəngəzur dəhlizinin açılması ilə yaranacaq yeni imkanlar, istərsə də Dövlət Proqramının icrası ilə reallaşan yeni sosial-iqtisadi mühit Naxçıvanı tarixin ən güclü inkişaf dövrünə yüksəldəcək, qədim diyarımız Türk dünyasının və regionun əsas nəqliyyat-tranzit və iqtisadi-ticarət mərkəzinə çevriləcəkdir.

Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən “Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində rolu” mövzusundakı konfransda aparılan müzakirələrin Naxçıvanın muxtariyyət tarixinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətli olacağını, yeni yanaşmalar ortaya qoyulacağını diqqətə çatdıran səlahiyyətli nümayəndə konfransın işinə uğurlar arzulayıb, iştirakçılara və təşkilatçılara təşəkkürünü bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında bildirib ki, Türk-İslam mədəniyyətinin mühüm elementlərini özündə yaşadan Naxçıvanın İslamaqədər və İslamdan sonrakı tarixi dövrləri türk etnosları-



nın tarix və mədəniyyətinin öyrənilməsində önəmli mərhələ təşkil edir. Mərkəzi Asiya, Yaxın Şərq, eləcə də Osmanlı arxivlərində Naxçıvan tarixinə, mədəniyyətinə dair dəyərli mənbələr mövcuddur. Sevindirici haldır ki, gənc alimlər bu mənbələri araşdırmaqla Naxçıvanı ətraflı tədqiq edir, dəyərli elmi əsərlər ərsəyə gətirirlər. Bununla belə qədim diyarımızın tarixinin öyrənilməyən səhifələri, araşdırılacaq çox mövzu və mənbələr mövcuddur. Bu istiqamətdə tədqiqatlar davam etdirilməlidir. Bu gün keçirilən konfrans da birgə araşdırmaların nəticələrinin müzakirəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Türkiyənin Ağrı İbrahim Çeçen Universitetinin rektoru, professor Abdulhalik Karabulut və Qars Qafqaz Universitetinin beynəlxalq əlaqələr şöbəsinin rəhbəri, Qafqaz və Orta Asiya Araşdırmalar Mərkəzinin direktoru, professor Hacalı Nəcəfoğlu çıxış ediblər. Vurğulanıb ki, Naxçıvan tarixin müxtəlif mərhələlərində üzərinə düşən vəzifələri uğurla yerinə yetirib. Böyük dövlətlərin maraqlarına sinə gərən bu diyarın əhalisi əzmkarlıq göstərib, bölgənin müdafiəsini təmin edib. Dövlət başçısının “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamı muxtar respublikanın Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında rolunun daha dərindən öyrənilməsinə xidmət edən mühüm tarixi qərardır.

Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası və simfonik orkestri kompozisiya və konsert proqramı ilə çıxış ediblər.

# Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı qeyd edilib





Oktyabrın 29-da Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən Türkiyə Cümhuriyyətinin yaradılmasının 101-ci ildönümü münasibətilə tədbir təşkil edilib.

Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi yad edilib, qardaş respublikaların Dövlət himnləri səsləndirilib.

Tədbirdə cümhuriyyət tarixinə həsr olunmuş videoçarx nümayiş etdirilib, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 101-ci ildönümü münasibətilə videomüraciəti izlənilib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Türkiyə Cümhuriyyətinin 101, Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb, Azərbaycan-Türkiyə münasibətlərinin qardaş ölkələrimizin başçılarının müəyyən etdiyi hədəflərə doğru hər sahədə sürətlə genişlənməsini və inkişafını böyük məmnuniyyət hissi ilə vurğulayıb. Azərbaycanda bu il COP29-un keçiriləcəyini diqqətə çatdıran Baş konsul ölkəmizin bu önəmli beynəlxalq konfransa uğurla ev sahibliyi edəcəyinə əminliyini ifadə edib.

Asip Kaya bildirib ki, Naxçıvan hər zaman Türkiyə üçün xüsusi əhəmiyyət daşıyıb. Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə əlaqələri hər sahədə genişlənir. Bu əlaqələrin davamı olaraq “Ziraat bank”ın yaxın günlərdə Naxçıvan filialı fəaliyyətə başlayacaq.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Türkiyənin müstəqillik bayramı – Cümhuriyyət elan edilməsinin 101-ci ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edib, Türkiyənin milli iradəsinin Cümhuriyyəti iqtisadi baxımdan inkişaf etmiş, demokratik vətəndaş cəmiyyətinə sahib, dünyəvi və hüquqi bir dövlətə çevirdiyini bildirib.

Xalqlarımızın bir-birinə qırılmaz tellərlə də bağlı olduğunu vurğulayan Samir Seyidəhmədli qeyd edib ki, iqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və digər sahələrdə əməkdaşlıq əlaqələrimizin uğurla inkişaf etməsi məmnuniyyət doğurur. Xüsusilə Zəngəzur dəhlizinin açılması və bölgədəki nəqliyyat-logistika şəbəkəsinin genişlənməsi istiqamətində həyata keçirilən tədbirlər iki qardaş ölkənin





daha da yaxınlaşmasına şərait yaradacaq. Həmçinin Türkiyə-Azərbaycan Universitetinin yaradılması, gələcək nəsillər üçün dərin biliklər və ortaq ideyalar əsasında yeni körpülərin qurulması baxımından böyük əhəmiyyət kəsb edir.

Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, tədbirdə rəsmi şəxslər, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak edib.




# Naxçıvanda “GreenFest” keçirilib

Oktyabrın 26-da Naxçıvan şəhərindəki “Saat Meydanı” İstirahət Mərkəzində “GreenFest”in açılışı olub.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Festivalın açılış tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Naxçıvanda “GreenFest”in COP29 və “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində keçirildiyini qeyd edib. COP29-un Azərbaycan üçün həm siyasi, həm də iqtisadi baxımdan əhəmiyyətinə toxunan Samir Seyidəhmədli bildirib ki, eyni zamanda bu tədbir Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə verdiyi dəstəyi bir daha göstərir və ölkəmizin ekoloji problemlərin həllinə sadiqliyini nümayiş etdirir. Bu mənada, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin və Naxçıvan Muxtar Respublikasının “yaşıl enerji zonası”, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ölkəmizdə, bütövlükdə, iqlim dəyişikliyi sahəsində həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi kimi yüksək dəyərləndirilməlidir.

“GreenFest”in də vacib dövrdə keçirildiyini və özlüyündə mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan Samir Seyidəhmədli əminliklə ifadə edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 ölkəmizdə uğurla keçiriləcək, Azərbaycan bir daha dünyanı narahat edən məsələlərə münasibətdə öz sözünü və ədalətli mövqeyini ortaya qoyacaqdır.

Muxtar respublikada COP29 və “Yaşıl dünya naminə həmrəylik ilinə hazırlıq”la bağlı yaradılmış işçi qrupunun rəhbəri, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov Naxçıvanda bu istiqamətdə görülən tədbirləri diqqətə çatdırıb. Qeyd edib ki, 2024-cü il fevralın 23-də Naxçıvanda bununla bağlı müşavirə keçirilib, işçi qrupu yaradılıb və bu istiqamətdə muxtar respublikada görüləcək tədbirlər müəyyənləşdirilib. Həmçinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”nda ətraf mühitin mühafizəsinin gücləndirilməsi əsas fəaliyyət istiqaməti kimi müəyyən edilib. Sözügedən Tədbirlər Planında maarifləndirmə, yaşıllaşdırma və bioloji müxtəliflik, ətraf mühitin sağlamlaşdırılması, tullantıların idarə edilməsi sahələrində tədbirlərin keçirilməsi nəzərdə tutulub. Artıq həmin tədbirlərin böyük hissəsi başa çatmaq üzrədir. “GreenFest” də bu işlərin davamı kimi mühüm əhəmiyyət daşıyır.





“GreenFest” çərçivəsində keçirilən ekoloji startap layihələrinin qalibləri mükafatlandırılıb, sərgi ilə tanışlıq olub.

Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər, Ədliyyə, Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Dövlət Energetika Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən sərgi ətraf mühitin mühafizəsinə həsr olunub və müasir ekoloji problemlərin elm, texnologiya, startap təqdimatları və müxtəlif stendlər vasitəsilə ictimaiyyətə çatdırılması məqsədi daşıyır.

Qeyd edək ki, festivalda dövlət və hökumət rəsmiləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Naxçıvanda doğum günü oktyabr ayında olan şəhidlərin xatirəsi anılıb



Oktyabrın 29-da “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə doğum günü oktyabr ayında olan şəhidlərin anım tədbiri keçirilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanan doğum günü oktyabr ayında olan şəhidlərlə bağlı videoçarx izlənilib. Tələbələr videoçarxda adları çəkilən 36 nəfər Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretlərini səhnədə nümayiş etdiriblər.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək bildirib ki, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin siyasi iradəsi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımız düşməndən azad edildi. Azərbaycan Ordusu öz missiyasını ləyaqətlə yerinə yetirdi, ərazi bütövlüyümüz təmin olundu. Ölkəmizdə yaranmış xalq-ordu-rəhbər birliyi nəticəsində tarixi ədalət bərqərar oldu.

Elşad Əliyev diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsi bir çox cəhətləri ilə dünya hərb və siyasət tarixinə əbədi həkk olundu. Əsas məqamlardan biri odur ki, müharibə xalqın dəstəyini arxasına alaraq haqq mübarizəsi aparan, ədalət mücadiləsi verən liderin siyasi portretinin cizgilərini aydın nümayiş etdirdi. Ali Baş Komandanın cəsur və məğrur sərkərdə kimi xalqın arasında, şəhid ailələrinin və qazilərin yanında olması da, Azərbaycan əsgərinin, zabitinin döyüş ruhunu artırdı, onlara əlavə güc və inam bəxş etdi.

Hər bir valideyn üçün əsl fəxarət mənbəyidir ki, böyütdükləri vətənpərvər övladları ilə xalqımızın qəhrəmanlıq ənənələrini davam etdirirlər, – deyən Elşad Əliyev bu gün Vətən torpağına kürəyimizi əminliklə söykəyib, onun havasını udub, suyunu içiriksə, bunun şərəfli döyüş yolu keçən şəhidlərimizin xalqımıza böyük bir hədiyyəsi olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, şəhidlərimiz üçün ən böyük abidə onların bizə bəxş etdiyi azad Şuşa, Xankəndi, Xocalı bütün Qarabağdır. Xalqımız və dövlətimiz onların qəhrəmanlıqlarına böyük dəyər verir, Vətən oğullarının bizə əmanət etdiyi bu torpaqlarda geniş quruculuq işləri reallaşdırır. Soydaşlarımız doğma Şuşaya, Laçına, Zəngilana qayıdır. Bütün bu uğurları qəhrəman oğullarımızın şücaəti sayəsində əldə etmişik. Dövlətimiz və xalqımız onların qəhrəmanlıqlarını unutmur, şəhidlərimizin xatirəsini daim əziz tutur.

Elşad Əliyev şəhidlərə Allahdan rəhmət diləyib, onların valideynlərinə səbir və qazilərə cansağlığı arzulayıb.

Mərasimdə şəhid Amin Gülməmmədovun atası Mayis Gülməmmədov və şəhid Elvin Məmmədovun atası Etibar Məmmədov çıxış edərək Azərbaycanı yenidən bütövləşdirib dünyaya tanıdan övladlarının xatirəsinə göstərilən ehtirama görə razılıqlarını bildiriblər.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının “Belkanto” vokal qrupu ilə birgə hazırladığı “Sən candan keçdin ki, el zəfər çalsın” adlı kompozisiya nümayiş etdirilib.

# Naxçıvan Dövlət Universitetində Qərbi Azərbaycandan olan gənclərin Naxçıvan forumu olub



Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən “İdeyanı reallaşdır 2023” Gənclərin Fərdi Layihələr üzrə Qrant Müsabiqəsində Naxçıvan Dövlət Universitetinin əməkdaşı Salatın Məmmədovanın “Qərbi Azərbaycandan olan gənclərin Naxçıvan forumu” layihəsinin açılış mərasimi keçirilib.

Forum çərçivəsində iştirakçılar əvvəlcə Ulu Öndərin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Heydər Əliyev Muzeyində olan qonaqlara Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında məlumat verilib.

Forumun açılış mərasimində Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, gənclər tərəfindən irəli sürülən təşəbbüsü yüksək qiymətləndirərək forumun işinə uğurlar arzulayıb. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyması, 2023-cü il sentyabrın 19-20-də isə dövlət suverenliyinin tam təmin olunması vaxtilə Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası üçün də real imkanlar yaradıb.

Vurğulanıb ki, Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı və Qərbi Azərbaycan İcmasının birgə tərəfdaşlığı ilə keçirilən forum “Qərbi Azərbaycana qayıdış” festival-konqresi də daxil olmaqla ölkədə bu sahədə görülən işlərin tərkib hissəsidir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli Prezident cənab İlham Əliyevin “Qərbi Azərbaycana qayıdış” Konsepsiyası çərçivəsində qarşıya qoyulan konkret vəzifələrdən, eyni zamanda bu istiqamətdə aparılan işlərdən bəhs edib. Natiq çıxışında Qərbi Azərbaycana qayıdışın Azərbaycan siyasətinin yeni xətti olduğunu nəzərə alaraq gənclərin bu işdə məlumatlanmasının vacibliyini diqqətə çatdırıb.

Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, Amasiya rayon icmasının sədri, akademik Abel Məhərrəmov Qərbi Azərbaycanla bağlı mühüm tədbirlərin Naxçıvanda keçirilməsinin önəmini qeyd edib. Akademik forumun Naxçıvan Dövlət Universitetində keçirilməsini təqdirəlayiq hesab edib, müəllifi olduğu kitablardan universitetə hədiyyə edib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, siyasi elmlər doktoru, professor Hikmət Məmmədov qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının siyasi-hüquqi əsaslarından söz açaraq son iki əsrdə ermənilərin azərbaycanlılara qarşı sistemli şəkildə apardığı etnik təmizləmə, zorla köçürülmə, zorakılıq, kütləvi qırğın və soyqırımı siyasətindən danışıb.

Azərbaycan Respublikası Gənclər Fondunun Naxçıvan Muxtar Respublika filialının direktoru Arzu Qasımov Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən “İdeyanı reallaşdır 2023” Gənclərin Fərdi Layihələr üzrə Qrant Müsabiqəsinin əhəmiyyətindən bəhs edib.

Naxçıvan Dövlət Universitetinin əməkdaşı, layihə rəhbəri Salatın Məmmədova bu kimi təşəbbüslərin reallaşmasında göstərilən diqqətə görə minnətdarlıq edib.

Sonra qərbi azərbaycanlı gənclərin ifasında Qərbi Azərbaycan rəqsləri nümayiş edilib.

Forum panel müzakirələrlə işini davam etdirib.

# Bayrağını yüksəltməyə, cümlə gənclər müştaqdır



Naxçıvan şəhərinin mərkəzi küçəsindən keçən və al bayraqlarla bəzənən maşın karvanını izlədikcə bir anlıq keçmişə qayıdıram – 1990-cı illərə, bir xalqın zəfər dastanının yazılmağa başladığı ilk günlərə.

Müstəqilliyi yenicə dadmışdıq ki, düşmən hücumuna məruz qalanda "Təslim ol", – dedilər, olmadıq. "Ordunuz yoxdur", – dedilər, yaratdıq! "Silah yoxdur", – dedilər, analar, qız-gəlinlər boyunbağısını, nişan üzüyünü, toy yadigarı olan sırğasını Müdafiə Fonduna bağışladı silah satın aldıq. Əliyalın soyuq səngərlərdə döyüşdü Azərbaycan əsgəri. Hüququndan keçən əsgər şanlı Vətəninə can qurban edib üçrəngli bayrağı enməyə qoymadı. 30 il düşmənin xarabaya çevirdiyi torpaqlara qəzəb hissi ilə baxdı Azərbaycan əsgəri. Ürəyində Qarabağ yanğısı, yurd həsrəti ilə yaşayan igid oğullar Ali Baş Komandanın "İrəli!" əmri ilə döyüşə atılıb, illərdir, qabıq qoyan, amma sağalmayan yaraya məlhəm oldular. Cəmi 44 gün, bir günü min ilə bərabər qələbə xəbərli 44 gün Azərbaycan tarixinin qanla yazılan qızıl səhifələri. Dünya belə Vətən sevgisi görməmişdi o günə kimi.



Hər qarış torpağı azad edəndə alnından axan tərə, bir ovuc torpağa qurban olan ayaqlarına, əllərinə ürəyinə, bir sözlə, övladının ətrinə həsrət qalan, canına yüz kərə qurban dedi analar, Azərbaycan əsgəri. Səni döyüşə yola salıb "Ya şəhid ol, ya qazi", – deyən anan həmin gün şəhid məzarı başında qələbə ilə qayıdan oğlunun tabutunu qucaqlayanda bütöv bir Vətəni də bağrına basdı. Səni bütöv Azərbaycan kimi qarşıladı. Atalar qurban kəsdi torpağı azad edib,





bayrağa bələnib gələn Azərbaycan əsgərinin tabutu önündə.

Gündüzlər Günəşin, gecələr qəlbindəki Vətən sevgisinin işığında torpağımızı qoruyan, qışın şaxtasında səngərlərdə ayazda kirpiklərinə qədər donan qəhrəman oğullara minnətdar olduq. Sənin ürəyinə dəyən mərmi bizim də qəlbimizdən keçdi həmin an. Üstünə hopan toz zərrəcikləri, ayağına dəyib keçən hər daş parçası ürəyimizi dəlib keçdi. Məhsulu yetişsin deyə dua edən əkinçi 44 gündə sənin ayağının islanmaması üçün yağış yağmasın deyib, əlini Allaha açdı. Hər il oktyabrda Şuşaya qar yağardı, həmin il o da yağmadı, çünki bilirdi əzizlərinin gəldiyini. Yağıb yolları bağlamadı, çünki sən gəlirdin Şuşanı azadlığa qovuşdurmağa. Namusunu hifz etməyə, bayrağını yüksəltməyə tələsən oğullar qələbə xəbəri ilə gəlsin deyə Tanrı da haqqını haqq elan etdi, Azərbaycan əsgəri. Çünki O da bilirdi ki, bizim bütün arzu və xəyallarımız səndə cəmləşir, Azərbaycan əsgəri.

Və artıq dörd ildir ki, igid oğullarımızı düşmən tapdağı altında olan torpaqlarda yaradılan düşmən səngərləri ilə üz-üzə dayanmağa yox, azad, suveren bütöv Azərbaycanın sərhədində dalğalanan üçrəngli, ay-ulduzlu qələbə bayrağının kölgəsində Vətən sərhədini qorumağa yola salırıq.

**Ramiyə ƏKBƏROVA**



# Halal et, şəhidim!

Bu gün yolum o torpaqlara düşdü, şəhidim. Qan izlərin olan torpağa. Gülə-gülə qurban getdiyin torpağa. Hər damlayan qanından yarpaq-yarpaq göyərən ana torpağa. Halallıq almağa gəldim.

Addım-addım əldə etdiyin azadlığın qanından süzülən sevinc dolu göz yaşlarını halal et. Göz yaşımda boğulub yenidən doğuldum. Yenidən doğulmağımı halal et, şəhidim.

Əllərindən, ayaqlarından, gözlərindən zinət vurmusan. Vətən torpağı böyüsün, bütövləşsin deyə qaraca torpağa dönmüsən buralarda. Üzümüz ağ olsun deyə qara torpağa dönən şəhidim, halal et.

Gəlmişəm, özümə yenidən evocaq qururam. Sənin qurban olduğun yerdə qurban kəsirəm. Bağışla məni, şəhidim.

Qanınla suvarılan torpağı əkib-becərirəm. Qızıl sünbüllü buğdanı üyüdüb yurd ətirli çörək bişirirəm. Burnuma bir qoxu gəlir... Sənin qoxun, şəhidim. Günlərlə ac-susuz qalıb, mənə bu toxluğu yaşatdığın üçün halal et.

Hələ həyətdəki yüzillik çinar ağacından bir yelləncək də asmışam. Uşaqlarım, nəvələrim mənimlə əylənsin deyə. Bağışla, nə olar! Sənin övladlarının əlindən alınan uşaqlıqlarına bağışla. Ata nəvazişinə, ata qoxusuna tamarzı qoyduğun körpənin "Ata, haradasan?" – deyən həsrət dolu səsinə, baxışlarına bağışla məni.

"İrəli!" – deyib dostlarını arxanca aparan zaman, düşmənə toy tutduğun yerdə bu dağlarda donub qalan oynaq bədəninə bağışla məni.

Oğluma, qızıma, nəvəmə, nəticəmə nişan aparıb, toy çaldıram, sənin qanınla qırmızı nişan örpəyinə bürünmüş bu torpağın üstündə. Halal et, şəhidim! Nakam ömrünə, yarımçıq qalan nişanına, toyuna bağışla məni.

Oxuduğun Vətən mahnısının sədalarına "Heyvagülü", "Qaytağı", "Vağzalı" sədalarını qatıram. Yenə də gülə-gülə rəqs edirəm. Üzündə donan nurlu təbəssümünü mənə bağışladın. Halal et, şəhidim.

Rahat evimdə, azad torpağımda oturub sevdiklərimlə, dostla, tanışla telefonla şirin-şirin söhbət edirəm. Övladlarımın telefon mesajlarına gözəl xəbərlərlə cavab verirəm. Şəhidim, yarımçıq qalmış sözünə, yazdığın son mesajlarına bağışla. "Anamdan muğayat olun", "Övladlarım sizə əmanət. Təki Vətən sağ olsun!", "Mən ölsəm ağlamayın, yerim narahat olar" – bu qürur dolu, sevgi dolu cümlələrin ağırlığına, acısına, həsrətinə bağışla məni, şəhidim.

Mənim şad günlərim başladı artıq, şəhidim. Adını tutub, "Vahid, sorma, Vətən nədən yaxşıdır?" sualının cavabını yaşayıram. Son anında üçrəngli bayrağı anan kimi bağrına basıb göy üzünə ucalarkən cavabını ala bilmədiyin suallarına bağışla məni. Halal et, şəhidim!

Harada xarıbülbül çiçəyi görsəm, sən ürəyimdən keçirsən. Həyətimizdə, evimizdə bu çiçəyi yetirib-bitirirəm. Yaşadıram səni. Polad kimi möhkəm, sınmayan ruhuna, çiçək kimi solan zərif cisminə bağışla məni, şəhidim!

Özünü qurban verib, Vətəni əmanət etdiyin və Vətənə əmanət etdiyin övladlarına, atana, anana, bacına, qardaşına sevdiklərinə bağışla bizi... Haqqımızı düşməndən alıb, haqq dünyasına qovuşanım, özünün gələcəyinə Vətən adında qırmızı bir xətt çəkib, bizi bizə, keçmişimizə, gələcəyimizə qovuşduranım, halal et!

Halat et, şəhidim!

**Təranə ARİFQIZI**

# Qüdrətli söz ustadının 530 illiyinə töhfə

Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi, şair və mütəfəkkir Məhəmməd Füzuli yaradıcılığından bəhs edən məqalələr toplusu çapdan çıxıb.

"Böyük Azərbaycan şairi Məhəmməd Füzuli" adlı məqalələr toplusu AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu tərəfindən hazırlanıb.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına uyğun olaraq hazırlanan toplu AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin elmi redaktorluğu, filologiya üzrə fəlsəfə doktorları, dosent Zülfiyyə İsmayıl və dosent Aygün Orucovanın rəyləri ilə nəşr olunub. Əsərin tərtibçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovdur.

Məqalələr toplusu Ümummilli Lider Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzuli haqqında fikirləri və Prezident cənab İlham Əliyevin qüdrətli söz ustadının 530 illiyi ilə bağlı imzaladığı Sərəncam ilə başlayır.

Toplu "Füzuli sənətinə ehtiramla" başlıqlı "Ön söz"dən və 15 tədqiqatçının Füzuli yaradıcılığından bəhs edən məqalələrindən ibarətdir.

Kitaba yazdığı "Ön söz"də professor Əbülfəz Quliyev filosof-şair Məhəmməd Füzulinin yaradıcılığının ədəbiyyatşünaslığımızdakı yerindən, formalaşdırdığı Füzuli məktəbindən söz açır və qüdrətli şairin irsini öyrənən ədəbiyyatşünas alimləri diqqətə çatdırır. AMEA Naxçıvan Bölməsinin elm adamları tərəfindən hazırlanan toplunu Füzuli




yaradıcılığının öyrənilməsinə töhfə, onun irsinə ehtiramın nümunəsi kimi xarakterizə edir.

Topluda yer alan "Məhəmməd Füzuli "Leyli və Məcnun"u professor Yusif Seyidovun araşdırmalarında", "Füzuli yaradıcılığında qeyri-təyini ismi birləşmələrin linqvistik təhlili", "Azərbaycan tənqidi realizmində Füzuli ənənələri", "Füzuli dilində arxaik sözlər", "Füzuli ənənələrindən bəhrələnən şair", "Məhəmməd Füzuli yaradıcılığında mərsiyə janrı", "Məhəmməd Füzulinin fəlsəfi dünyası", "Məhəmməd Füzuli yaracılığında söz", "Füzuli yaradıcılığının fəlsəfəsində paremioloji vahidlərin rolu", "Məhəmməd Füzuli XX əsr Azərbaycan incəsənətində", "Şərq ədəbiyyatında məqtəl janrında yazılan şah əsər – Hədiqətüs-süəda", "Böyük Azərbaycan şairi Məhəmməd Füzuli və milli təsviri sənətimiz", "Söz xəzinəsinin sultanı Məhəmməd Füzuli", "Məhəmməd Füzuli poeziyası və Azərbaycan musiqisi" adlı məqalələrdə Füzuli yaradıcılığı müxtəlif aspektlərdən araşdırmaya cəlb olunaraq maraqlı təhlillərə yer verilib.

# Divar yazan uşaqlar

## və ya hələ yazılası divarlar çoxdur












Divar yazmağı özünə məşğuliyyət seçən uşaqlar hər dövrdə, hər kənddə, hər şəhərdə olub və bunun yaxşı bir iş olmadığını da hər kəs yaxşı bilir. Doğulub boya-başa çatdığım kənddə, elə bizim məhəlləmizdə də bu işdən böyük zövq alan uşaqlar çox idi. Nə gizlədim, mən özüm də uşaq ağlımla çox belə işlər görmüş, ilk yazı təcrübəmi də yazı lövhəsindən, yazı dəftərindən əvvəl qonşu divarlarında qazanmışdım. Bir zamanlar qələmə aldığım "Qaranlıq otaq" adlı hekayəmin də əsas mövzusu məhz bu pis vərdişin mənə verdiyi həyat dərsindən götürülmüşdür... İndiki uşaqlar bilməz, ötən əsrin 80-90-cı illərində orta məktəblərdə sinif otaqları yarıyadək tünd-mavi rənglə, daha yuxarı hissəsi isə əhənglə boyanardı. Bir dəfə sinifdə divarın mavi hissəsində təbaşirlə nə isə yazdığım üçün riyaziyyat müəllimimiz olan Heydər müəllim tərəfindən cəzalandırılmağım, daha doğrusu, məktəbin "qaranlıq otağ"ında qonaq olmaq təhlükəsiylə üz-üzə qalmağım mənim məktəblə bağlı çox da xoş olmayan xatirələrimdəndir...

Sonralar elə həmin məktəbdə, divarları yarıyadək mavi boya ilə boyanmış həmin sinif otağında Gülzadə müəllimin tədris etdiyi ədəbiyyat dərsində divar yazmağın daha bir forması ilə tanış oldum... Bu yeni tanışlıq Cəlil Məmmədquluzadənin "Saqqallı uşaq" hekayəsi sayəsində oldu. Düzü, həmin hekayəni oxuyarkən göz önündə daha çox divar yazmaq mərəzi ilə əlaqəli öz xatirələrim canlanır, hekayənin daxilindəki yumordan daha çox məni öz hekayətlərim – bir zamanlar həmyaşıdlarımla birgə yazdığımız divarlar güldürürdü...

İllər keçdi... Ali məktəbi bitirərək oxuduğum orta məktəbə Azərbaycan dili və ədəbiyyat müəllimi olaraq qayıtdım. Yenə həmin köhnə məktəb, yenə yarıyadək mavi rənglə boyanmış həmin sinif otaqları... İşə başladığım, həmin siniflərdən birinə artıq müəllim olaraq daxil olduğum ilk gün, ilk dəqiqələr, nədənsə, mənə yenə həmin günü – təbaşirlə divarı yazdığım günü xatırlatdı...

Artıq yaddaşımda ilişib qalmış "divar yazmaq" mövzusu 10-15 il sonra başqa bir formada zehnimdə "zühur etdi". Qəzetdə fəaliyyətə başladığım ilk illərdə internet saytlarının və sosial şəbəkələrin yaranması ilə həm də yeni "divar yazan uşaqlar"ın ortaya çıxmasını gördük. O zamanlar internet ünvanlarını, e-maillərini divarlara yazan uşaqlar barədə bir maarifləndirici yazı dərc etdirməklə "zəmanə uşaqları"na təsir etmək istəsəm də, təəssüf ki, çox da faydası olmadı...

Dünən biz qonşu divarını təbaşirlə yazırdıqsa, bu gün kiçik qızım bu işi mənim maşınımın üzərində mismarla həyata keçirir. Sabah necə olacaq, hansı formada olacaq, onu bilmirəm... Bircə onu bilirəm ki, divar yazısından cəmi iki dəfə böyük zövq almışam... Birinci dəfə kiçik qızım bu işi mənim yeni maşınımın sol qabaq qapısında gerçəkləşdirəndə, bir də Qarabağda, əsasən, Şuşada olarkən igid oğullarımızın yazdığı divarları görəndə... İşğaldan azad olunan şəhər və kəndlərimizdə divarlara yazılan bu yazıları sevinc göz yaşları ilə bir-bir oxuyurdum... Orfoqrafik səhvlərlə dolu olan həmin yazılara baxdıqca bu yazıları yazan uşaqlara haqq qazandırır, daxildən: "Əcəb etmisiniz!" – deyirdim.

*"Qarabağ Azərbaycandır!"*
*"Biz qayıtmışıq!"*
*"Şuşa, sən azadsan!"*

Əyri-üyrü xətlərlə divarlara yazılan bunun kimi və bundan da gözəl sözlər istər-istəməz insanı sevindirir, kövrəldir... Elə kiçik qızımın mismarla maşınımın qapısına yazdığı "Səni sevirəm, ata!" yazısı qədər sevindirir insanı... O cür böyük qələbədən sonra divarlara bu cür yazıları yazan qəhrəman oğulları heç cür qınamaq olmur. Çünki o yazılar ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında igid oğullarımız tərəfindən yazılan Zəfər Tariximizin ilk sətirləridir... Çünki o yazılar şəhidlərimizin, qazilərimizin və digər igid oğullarımızın qanı ilə yazılıb... Çünki o yazılarda adları qeyd olunan oğullar bu torpaq, bu Vətən, bu xalq üçün özlərini göz qırpmadan ölümün pəncəsinə atmış, əksəriyyəti isə bu böyük amal uğrunda şəhid olaraq Vətən sevgisinin necə bir yüksək ad olduğunu bütün dünyaya göstərmişdir... O yazıları yazan oğulları bu gün sayğıyla, hörmətlə, ehtiramla anırıq və bu, dünya durduqca belə olacaqdır...

Bu gün bir xalq olaraq qürurluyuq... Torpaqlarını düşmən tapdağından azad edən, ölkəsinin ərazi bütövlüyünü təmin edən bir xalqın bu cür qürurlanmağa, fəxr etməyə haqqı var. Bu qüruru, fəxarəti bizə bəxş edən isə məhz Qarabağda tarix yazanlar – divar yazan oğullardır. O oğulların çoxu o yazıları yazdıqdan sonra şəhadət zirvəsinə yüksəlib... Bir çoxu öz sağlığını itirib, qazi olub... Qalanlar, o qanlı-qadalı müharibədən sağ çıxıb yaşayanlar da var həmin o "divar yazan oğullar" sırasında... Hələ çoxdur əli silah tutan igidlərimiz... Hələ çoxdur Vətəni canından əziz bilən qəhrəman oğullarımız... Hələ çoxdur "divar yazmağı" bacaran ərlərimiz... Elə yazılmalı divarlar da çoxdur... Lap çoxdur...

**Qafar QƏRİB**

# Naxçıvanın bu məktəblərində ingilis dili niyə tədris olunmur?!

## *İngilis dili, yoxsa fransız dili?*




Övladlarının təhsil aldığı məktəbdə ingilis dili fənninin tədris olunmamasından narazı olan bir neçə valideyn son əlacı redaksiyamıza müraciətdə gördü. Elə bu müraciəti nəzərə alaraq biz də Babək rayonunun Didivar, Şıxmahmud, Şərur rayonunun Cəlilkənd, Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəblərində ingilis dili fənninin niyə tədris olunmadığı sualına cavab tapmaq üçün həmin məktəblərə yollandıq. Valideynlərlə danışdıq, müəllimlərlə bu mövzunu ətraflı müzakirə etdik.

Qızlarından birinin Didivar kənd tam orta məktəbinin 4-cü, digəri isə 5-ci sinifində təhsil alan Gülayə Cabbarlı bu vəziyyətdən xeyli narahat olduğunu dedi. Sən demə, övladları təhsil aldığı məktəbdə əsas xarici dil kimi fransız dili tədris olunduğundan onlar da həmin dili seçmək məcburiyyətində qalıblar. Gülayə xanım deyir ki, hər kəsə məlumdur ki, ingilis dili dünyaya açılan pəncərədir. Hər birimiz bilirik ki, beynəlxalq aləmə əsas çıxış dili də elə ingilis dilidir. Mən də bir valideyn olaraq övladlarımın xarici dil seçiminin ingilis dili olmasını arzu edirdim. Təəssüf hissi ilə deyə bilərəm ki, Didivar kənd tam orta məktəbində ingilis dili xarici dil olaraq tədris edilmir. Bununla bağlı dəfələrlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə, rayon və şəhər Təhsil şöbələrinə müraciət etsəm də heç bir müsbət qərar verilmədi. Kadr çatışmazlığı olduğunu deyib bizi yola verdilər. Düzdür, qızlarımın ikisi də ingilis dilindən əlavə olaraq hazırlığa gedir, fransız dilini öyrənməyə də maraqlı deyillər. Bu da bizə, sözün düzü, baha başa gəlir, çünki neçə illərdir ki, ingilis dili hazırlığına ödəniş edirəm. Tanıdığım bir neçə kənd sakini var ki, orta məktəbdə xarici dil olaraq fransız dili seçdikləri üçün istər universitet, istərsə də iş həyatında problemlərlə üzləşiblər. Ona görə də övladlarımın bu kimi problemlərlə qarşılaşmağını istəmirəm.

Şahtaxtı kəndindən olan Arifə müəllimin də həm müəllim kimi, həm də valideyn kimi ürəyi doludur. Deyir ki, sussam olmur, danışsam ürək razı deyil. Mən özüm Şahtaxtı kənd tam orta məktəbində riyaziyyat fənnini tədris edirəm. Sözün düzü, bu məsələ ilə bağlı direktora bir valideyn olaraq müraciət etdim. Bunu eşidən məktəbimizdəki fransız dili müəllimi məndən incidi ki, sən mənim çörəyimə bais olursan. Mən demirəm ki, fransız dili ləğv edilsin, elə mənim kimi digər valideynlər də fransız dilinin ləğv olunmasının lehinə deyil, sadəcə, biz istəyirik ki, övladlarımızın xarici dil seçərkən ingilis dilini əsas dil kimi seçmə imkanları da olsun. Övladlarımın biri on birinci sinifdə təhsil alır, digəri isə bu il Naxçıvan Dövlət Universitetinə qəbul oldu. Hər ikisi məcburiyyətdən fransız dili fənnini xarici dil olaraq seçdi. Əvvəllər düşünürdüm ki, eybi yox, xarici dil öyrənməyin nə ziyanı var ki, fransız dilini öyrənsinlər, əgər gələcəkdə istəsələr, ingilis dilini də öyrənərlər. Amma qızım universitetə qəbul olduqdan sonra çox əziyyət çəkdi, təhsil aldığı fakültədə xarici dil seçimi yalnız ingilis dili olduğundan qiymətləri aşağı gəldi, məcbur ingilis dilindən hazırlığa getməli olsa da, sıfırdan ingilis dilini öyrənmək qızım üçün çox çətindir.

Cəlilkənddə olarkən bu məktəbdə xarici dilin fransız dili olduğunu dedilər. Amma məktəbin direktoru Minurə müəllimlə danışarkən məlum oldu ki, bu tədris ilindən həmin məktəbdə fransız dilindən əlavə olaraq ingilis dilinin də tədrisinə başlanılıb. Amma təəssüflər olsun ki, bu məktəbdə də ingilis dilinin bir zamanlar tədris olunmamağı digər şagirdlər kimi indi Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsində təhsil alan Əli Nadirlinin arzusunu ürəyində qoyub. O, 2020-ci ildə böyük həvəslə Gömrük Akademiyasına hazırlaşarkən son anda akademiyanın yalnız xarici dil biliyi ingilis dili olan tələbələri qəbul etdiyini öyrəndikdə məyus olub. Düzdür, Əli indi yaxşı ixtisasda təhsil alır, bu il o, son kursdadır. İnanırıq ki, Əli Nadirli gələcəkdə özünü görmək istədiyi gömrük sahəsindən də daha yüksək yerlərdə olacaq.

Sonda valideynlərin də, şagirdlərin də, necə deyərlər, yaralı yeri olan bu mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elşən Qəbulov danışdı.

Onun sözlərinə görə, Azərbaycan Respublikası elm və təhsil nazirinin müvafiq əmri ilə 2024-2025-ci tədris ilinin tədris planı təsdiq edilib. Müvafiq əmrə əsasən Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində tədrisi nəzərdə tutulan xarici dil ingilis, alman, fransız, rus, ərəb və fars dilləri arasından seçilir. Seçim isə övladı təhsil alacağı məktəbə ərizə ilə müraciət edən valideyn tərəfindən olur. Yəni ona təqdim olunacaq müqavilədə övladının hansı xarici dildə təhsil alacağını valideyn özü seçir. Tədris dilindən asılı olmayaraq, bütün ümumi təhsil müəssisələrində xarici dilin tədrisinə birinci sinifdən başlanılır. Tədrisinə birinci sinifdən başlanılan xarici dil şagirdin ümumi təhsil müəssisəsində öyrəndiyi əsas xarici dil hesab olunur.

Xarici dilin tədrisi üçün müəssisədə müvafiq pedaqoji kadr potensialının olması zəruri şərtlərdən biridir. Bu da onu göstərir ki, həmin məktəbdə xarici dil üzrə hansı pedaqoji kadr vardırsa, o istiqamətdə xarici dilin tədrisi həyata keçirilir. Xarici dillər üzrə müvafiq pedaqoji kadr potensialı olmadığı halda əsas və ikinci xarici dillərə ayrılan saatlar başqa fənlərin tədrisinə verilir. Ümumtəhsil məktəblərində əsas xarici dillər 1-ci sinifdən, əlavə xarici dil isə 5-ci sinifdən tədris olunur. 1-ci və 5-ci siniflərdən başlayaraq tədris edilən xarici dillərin növbəti siniflərdə dəyişdirilməsinə yol verilmir. Məktəbdə bir neçə xarici dil öyrədilərsə, şagird yalnız birini əsas dil kimi seçməlidir. Elşən müəllim onu da bildirdi ki, şagird gələcəkdə buraxılış imtahanı zamanı təhsil aldığı əsas xarici dildən deyil, digər dildən imtahan verməsi üçün Dövlət İmtahan Mərkəzinə yazılı şəkildə müraciət edərək imtahan verəcəyi xarici dili öz istəyinə uyğun şəkildə seçə bilər.

***P.S.*** Qeyd edək ki, hazırda Naxçıvan məktəblərinin 13-də ingilis dili tədris edilmir. Bu da valideynlərin narazılığına səbəb olur. Düzdür, kimsə demir ki, fransız dili tədris olunmasın. Olunsun. Amma qəbul etmək lazımdır ki, dövrümüzün tələblərinə görə fransız dili faydasız dildir. Fikrimcə, bu dili öyrənməyin böyük bir əhəmiyyəti yoxdur. İngilis və fransız dillərinin çoxəsrlik savaşında bir qalib var, o da ingilis dilidir. Hər birimiz bilirik ki, beynəlxalq aləmə əsas çıxış dili ingilis dilidir. Ümumiyyətlə, xarici dillərin öyrənilməsi ilə bağlı ümumi bir tələbat var. Bu tələbat istəsək də, istəməsək də, cəmiyyətin özü tərəfindən formalaşır. Elə bugünkü cəmiyyətin də öyrənmək marağında olduğu ingilis dili kimi... Bu baxımdan ölkəmizdə xarici dillərin tədrisində əsas dil kimi ingilis dilinin üstünlük təşkil etməsini arzu edirik. Və ümidliyik ki, şagird və valideynləri narahat edən bu məsələ tezliklə öz müsbət həllini tapacaq.

✍ **Gülcamal TAHİROVA**




# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şahbuz rayonunun Kolanı kəndindən olan şəhidimiz İman Alməmmədovun anası Məhluqə Alməmmədovanın, Şahbuz şəhərindən olan şəhidimiz İlkin Muradlının anası Həcər Muradovanın və Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Sədi Musayevin anası Nəsibə Musayevanın övladları haqqında xatirələri yer alıb.***

## İman Tarverdi oğlu Alməmmədov

*(17.05.1999-10.11.2020)*

### Balamın qoxusunu o torpaqlardan aldım





İman uşaqlıqdan ətrafındakılardan seçilirdi. Ata-anaya, qohum-əqrəbaya çox yanımlı idi. Onu çox ürəyiaçıq, təmiz bir övlad kimi tanıyırdılar. Ən böyük arzusu hərbçi olmaq idi. Hərbi xidməti başa vurduqdan sonra dedi ki, mən hərbidə qalmaq istəyirəm. Əvvəlcə razı olmadıq. Ancaq qəlbini də sındırmaq istəmirdik. Dedik ki, qalırsan qal, amma kəşfiyyatda qalma. Dedi ki, yox, mən elə orada qalacağam. Uşaqlıqdan da dağda-daşda böyümüşdü deyə çətin gəlmirdi ona ağır şərait. Arada ikigünlük evə gəldi. Qurbanı vardı, kəsdik, qayıdıb getdi. Bir dəfə getmişdik bazara. Martın 4-ü idi. Bir də baxdım ki, böyük bir gül buketi yığdırıb. Elə bildim ki, qardaşının nişanlısı üçün alır. Dedi ki, ana, ilk maaşımdır, sənin qadınlar bayramın üçün yığdırmışam bu gül buketini. Hətta buketin üzərinə bir ətir şüşəsi də qoydurmuşdu. Ətir şüşəsinin üzərinə yazdırmışdı ki, ən gözəl qoxu anamın qoxusudur. Nə yaxşı ki, sən varsan, ana! Hələ də o ətri saxlayıram. Nişanlı idi. Gözləyirdik ki, məhərrəmlik ayı çıxsın toyunu edək. Günləri sayırdı.



Bir gün gördüm mənə yox, atasına ard-arda zəng edir. Qəribəmə gəldi ki, hər dəfə mənə zəng edərdi. Nə isə... Atasına deyir ki, bəs gedirik döyüşə. Narahatlığım da elə onda başladı. Gedəndən sonra imkan olduqca zəng edirdi. Bir dəfə də tanımadığımız nömrədən zəng gəldi. Atası telefonu açan anda əlləri başladı əsməyə. Dedilər ki, bəs İmanın yanından gəlirik. O olan yerdə şəbəkə çəkmir deyə zəng etdik ki, nigaran qalmayasınız. Demək, İman həmin vaxt yaralanıb. Danışmır ki, hiss etməyək. Bilirdi ki, narahat olacağıq. Sonra özümə yazmışdı ki, məndən nigaran qalmayın, yaxşıyam. O, söhbətimizdən 12 gün sonra zəng etdi. Yenə dedi ki, nigaran qalmayın, yaxşıyam. Amma yaralandığını bilirdik. Sonradan onlar olan maşını vururlar. Göstərdiyi şücaətlərdən indi də döyüş yoldaşları danışır. Qürur hissi keçirirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

## İlkin İlyas oğlu Muradlı

*(27.09.1995-09.11.2020)*

### Vətənpərvər, cəsur, qorxmaz idi





İlkin xasiyyətcə o biri uşaqlarıma bənzəmirdi. Bəlkə də, ilk övladım olduğu üçün mənə bu qədər yaxın idi. Məni o qədər əzizləyirdi ki... Hətta deyirdi, dünyada bir gözəl qadın varsa, onu da atam alıb. Sənin kimi gözəl qadın yoxdur. Elə bir qız alacağam ki, gözləri sənin gözlərinə bənzəsin. Nənəsigilə də mənə anama bənzəyən qız gözaltı edin deyərək gülümsəyirdi.



Həmişə deyirdi ki, ana, mən sənin üçün elə bir iş görəcəyəm ki, hər kəs qarşında baş əysin. Düşünürdüm ki, yəqin, yaxşı oxuyacaq, ali məktəblərin birinə daxil olacaq, öz işi, fəaliyyəti ilə başqalarına nümunə olacaq. Mən də onunla buna görə fəxr edəcəyəm. Ancaq ağlıma da gəlməzdi ki, mən onun şəhidliyi ilə fəxr edəcəm. Qismət belə imiş...

Hara getsə deyərdi ki, ana, duanı məndən əsirgəmə. Sənin duaların mənə düşür. Sonuncu dəfə gələndə dedi ki, ana, gedək sənə paltar alaq. Dedim ki, ay bala, bu haradan ağlına gəlib? Dedi, gedək, gör sənə necə gözəl paltar alacağam. Getmədim... Bəlkə də, balamın ürəyinə nəsə damıbmış? İndi də peşmanlığını yaşayıram, kaş gedərdim, görərdim mənə necə paltarlar alır.

Heç razı olmazdı ki, gözümdən yaş süzülə. Müharibə günlərində tez-tez zəng edirdi. Deyirdi ki, özünüzdən muğayat olun. Qardaşı da döyüşlərdə idi. Bizə tapşırırdı ki, özünüzdən muğayat olun, biz qayıdıb gələndə sizi sağ-salamat görək. Sonuncu dəfə oktyabrın 26-sı danışdım. Yenə də o sözləri dedi. Atası ilə də ayın 28-i danışmışdılar. Sonra nə qədər zəng etdim, mesaj yazdımsa cavabsız qaldı. Şuşada olduqlarından telefon işləmirmiş. Orada əlbəyaxa döyüşlərdə olmuşdu. Döyüş yoldaşları bizi görməyə gələrkən mənə oğlumun qəhrəmanlıqlarından danışırlar. Qəlbim dağa dönür.

Yoldaşları deyirlər ki, İlkin həmişə deyirdi, kaş bir quş olardım. Gedib anamı görüb gələrdim. Heç doymadıq bir-birimizdən. Çox ailəcanlı idi. Döyüşlərdə ola-ola qardaşı Heydərdən də çox nigaran qalırdı. Fikirləşirdi ki, birdən ona nəsə olar.

Balaca qardaşı ilə telefonla danışarkən ona ad günü hədiyyəsi olaraq “Sənə Qarabağı alacağam”, – demişdi. Aldı və noyabrın 9-u şəhid oldu. Balamın şəhid olduğu yerə getdim. Qismət olsa atası ilə yenə də gedəcəyik. O torpaqlar hər birimiz üçün müqəddəsdir.

## Sədi Süleyman oğlu Musayev

*(01.04.1978-28.09.2020)*

### Ən müqəddəs və ən uca zirvə







Sədigil evdə 5 uşaq olub. Sədi həmişə məhəllədəki uşaqları yığıb başına tüfəng-tüfəng oynayardılar. Bir gün iki taxta parçası gətirdi. Atasına dedi ki, mənə tapança düzəlt. O vaxtlar mağazalarda elə tapança kimi oyuncaqlar yox idi, ya da az tapılardı. Atasının da yaxşı əl qabiliyyəti vardı. O taxta parçalarından oyuncaq tapança düzəldib Sədiyə verdi. Tez qaçıb qardaşları, məhəllə uşaqları ilə oynamağa başladı. 7-ci sinifdə oxuyarkən özü atasına dedi ki, mən hərbiyə getmək istəyirəm. Atası bildirdi ki, sənin hələ boyun balacadır. İnadla dedi, yox, mən hərbiyə getmək istəyirəm. İstədiyi kimi hərbiyə getdi və qismət də gətirdi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldu. Orada oxuyarkən evə təşəkkürnamələr göndərilirdi. Hərbi liseyi müvəffəqiyyətlə bitirdi. 5-6 il Tərtərdə xidmət etdi. Evə gəlmişdi, mən evdəkilərə dedim, Sədi evlənmək istəyir. Utanırdı desin. Amma mən ana kimi hiss edirdim balamın qəlbindən keçənləri. Toy-büsatla evləndirdik. Arzu adında qızı dünyaya gəldi. Sədi 3-cü kursda oxuyarkən atası vəfat etmişdi. Çətin vaxtları olsa da, dilə gəlib nəsə istəməzdi evdən. İkinci övladı dünyaya gələndə atası Süleymanın adını qoydu. Bölmə rəisi işlədiyi vaxtlarda çox hörmət qazanmışdı. Həmişə deyirdi, əsgərlərim mənim qardaşlarımdır. Onlara qayğı ilə yanaşırdı. Təlimlərə çox ciddi əhəmiyyət verirdi. Əsgərlər də ondan razılıq edirdilər. Bu gün onun əsgərləri ilə görüşəndə bağrıma basıram ki, bəlkə, Sədinin qoxusunu alaram.

Beyləqana yeni köçmüşdülər ki, müharibə başladı. Döyüşə ilk qatılanlardan oldu. Ayın 27-si yoldaşı ilə sağollaşıb gedəndə deyib ki, ürəyimə damıb, şəhid olacağam.

Gəlinim bu sözdən sonra çox narahatlıq keçirmişdi. Son danışığımız müharibəyə 3 gün qalmış oldu. Qardaşı dedi ki, Sədi, deyirlər, müharibə olacaq. Qəhqəhə çəkərək güldü. Narahat olmayaq deyə dedi, yalandı. Füzulinin Əbdürrəhmanlı kəndində şəhidliyə yüksəlib. Baxmayaraq ki, çox çətinliklə böyütmüşdüm, amma qürurluyuq. Ona görə ki, oğlumun qəlbi daim Vətən sevgisi ilə döyünürdü. Allah bütün qəhrəman şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Oğullarımız Vətən üçün canlarından keçdilər ki, Vətən sağ olsun. Bayrağımız



hər zaman ucalarda dalğalansın. Allah şəhidlərimizin ruhunu şad etsin.

## İkili diplom müqaviləsi imzalanıb



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili məqsədilə NDU-nun rektoru Elbrus İsayev və rektorun müşaviri Rəcəb Cəfərli Macarıstanda səfərdə olublar.*

25 oktyabr tarixdə Macarıstanın Con fon Neyman Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında Kompüter mühəndisliyi (tədrisi ingilis dilində) ixtisası üzrə bakalavr pilləsində ikili diplom müqaviləsi imzalanıb.

İmzalanma mərasimində Macarıstan Respublikası parlamentinin vitse-spikeri, Con fon Neyman Universitetinin himayəçilər şurasının sədri Sandor Lejsak, rektor Tamas Ferenc Fülöp, professor Zoltan Nad və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, rektorun müşaviri Rəcəb Cəfərli və Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Tahir Tağızadə iştirak ediblər. Müqaviləyə əsasən sentyabrdan etibarən Kompüter mühəndisliyi (tədrisi ingilis dilində) ixtisası üzrə ikili diplom üçün qəbul aparılacaq. Bu ixtisası seçən tələbələr təhsillərinin bir hissəsini Con fon Neyman Universitetində tamamlayacaq və hər iki ölkə ali təhsil müəssisəsinin müvafiq ixtisas üzrə diplomunu alacaqlar.

Məlumat üçün bildirək ki, Bağçılıq və regionların inkişafı, Mühəndislik və informasiya texnologiyaları, İqtisadiyyat və biznesin təşkili fakültələrindən ibarət olan Con fon Neyman Universitetinin mühəndislik bölməsi çox inkişaf edib və dünyaca məşhur sənaye şirkətləri ilə sıx əməkdaşlıq münasibətləri qurub. Universitetdə, eyni zamanda bilik mərkəzləri fəaliyyət göstərir ki, bunlardan ən nüfuzluları Avrasiya Mərkəzi, Müdafiə Sənayesi Mərkəzi, Animasiya Mərkəzi və Hidrogen Texnologiyaları Mərkəzidir.

## Darıdağ avtomobil yolunda təmir işləri həyata keçirilir

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda yerli əhəmiyyətli yolların təmiri nəzərdə tutulub.

Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətindən bildirilib ki, Dövlət Proqramının icrasına uyğun olaraq agentlik tərəfindən uzunluğu 3,7 kilometr olan "Darıdağ" Arsenli Su Müalicə Mərkəzinə aparan avtomobil yolunda keyfiyyətin artırılması məqsədilə üçüncü qat asfalt işləri həyata keçirilir. Bu təbəqə yolun dözümlülüyünü yüksəltməklə yanaşı, həm də hərəkət təhlükəsizliyini təmin edəcək.

Hazırda işlər standartlara uyğun icra olunur.



## Naxçıvanın kəndlərində energetika infrastrukturu yenidən qurulur



Naxçıvan Muxtar Respublikası Energetika Xidməti tərəfindən muxtar respublikanın bütün rayonlarında yenidənqurma işləri aparılır.

Energetika Xidmətinin mətbuat xidmətindən bildirilib ki, ötən əsrin sonlarından istismar olunan hava elektrik verilişi xətləri yenilənir, istismar müddəti bitmiş ağac dirəklər dəmir-metal dirəklərlə əvəz olunur. Proses daha keyfiyyətli şəkildə aparılır.

Hazırda Şərur rayonunun Muğanlı, Xələc, Babək rayonunun Şəkərabad, Culfa rayonunun Ləkətağ və Boyəhməd kəndlərində elektrik xətləri yenilənir.

Qeyd edək ki, muxtar respublikanın kəndlərinin elektrik təsərrüfatının yenidən qurulması üçün xidmətin vəsaiti hesabına dövlət satınalmaları həyata keçirilərək bir çox mal-materiallar da alınıb.

Alınan müasir özünü daşıyan izolyasiyalı kabellər (SİP) və aksesuarları, güc transformatorları, izolyatorlar, kabel ucluqları, tikinti materialları və digər avadanlıqlar muxtar respublika üzrə kəndlərin elektrik təsərrüfatının yenilənməsində istifadə olunur.

Həmçinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 20 kəndin 10 kilovoltluq və 0,4 kilovoltluq elektrik şəbəkəsinin layihələndirilərək yenidən qurulması nəzərdə tutulub.

## Texnika parkı yenilənib

İnfrastruktur quruculuğunun əsas sahələrindən olan meliorasiya və su sistemləri sferasında görüləcək mühüm işlər su təchizatı, meliorasiya və irriqasiya sahəsinin inkişafına böyük töhfədir. Su infrastrukturunun effektiv təşkili məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyində yeni texnika və avadanlıqlarla təchiz olunmuş texnika parkı yenilənib.

Agentliyin mətbuat xidmətindən bildirilib ki, texnika parkı 1 ədəd "FORD 1833 DC" markalı kanalizasiya təmizləyən, 1 ədəd "Donat 3 oxlu platforma" markalı texnika daşıyıcı, 1 ədəd "Donat 2 oxlu" markalı boru daşıyan qoşqu, 2 ədəd "Cat 303.5 CR" markalı minitırtırlı ekskovator, 2 ədəd "Cat 226 B3" markalı miniyükləyici, 1 ədəd "Hidromek HMK 210 WH4" markalı təkərli ekskavator, 2 ədəd "XCMG XCT16" markalı avtokran, 8 ədəd "GAZ A22 R32" markalı avtomaşın, 3 ədəd "Hidromek HMK 102B" markalı təkərli ekskavator yükləyici, 4 ədəd "MOSATS 405 EVO" markalı qaynaq generatoru olmaqla, ümumilikdə, 25 texnika və avadanlıqla təchiz olunub. Agentliyin tabe idarələrinin istifadəsinə veriləcək texnikalar vasitəsilə muxtar respublika ərazisində torpaqlarda əkinçilik üçün əlverişli şəraitin yaradılması, deqradasiya olunmuş torpaqların münbitliyinin artırılması, içməli və suvarma su təminatının yaxşılaşdırılması, su təchizatı və kanalizasiya sistemlərinin istismarının təşkili və idarə olunması üçün görüləcək işlərdə səmərəli istifadə olunacaq.









# Onlara zəhmət adamı deyirlər

Onlar ilin bütün fəsillərində alın təri torpağa qatanlar, hər səhər Günəşi salamlayıb, dan ulduzunu seyr edən zəhmətkeşlərdir. "Zəhmət adamı", "Torpaq insanı" da deyirik onlara. Hər insan bir ovuc torpaqda doğulsa da, onun dilini bilmək hamıya qismət olmur. Torpağın da öz dili var axı, suyun da, heyvanların da, bitkilərin də. Onların dilini bilmək üçün dərin biliklərə də ehtiyac yoxdur. Gününün çoxunu – payızı, yazı onlarla birlikdə keçirdikcə dilini də öyrənirsən hamısının. Heyvandarlıqla məşğul olan təsərrüfatçı onların, əkinçilik edən insan isə torpağın sirlərinə bələd olur. Onlar gününün çoxunu əkin-biçində keçirir. Yaxşı bilirlər ki, torpaq da sığal sevir. Elə ki ona qədərincə qulluq göstərdin, səni ümidsiz qoymaz, barını əsirgəməz. Bir sözlə, bu torpağın nazını çəkməlisən ki, barını-bəhərini də görəsən. Kənd adamı da elə bütün fəsillərdə qulluq edir mal-qarasına, ağacına, bitkisinə. Bağban qış gəlməmiş ağacları budayır, havalar soyumamış qış suyunu verir bağların, üzüm tənəklərinin üstünü torpaqla örtür, əkinçi isə taxıl sahəsini vaxtında şumlayıb gələn ilin yazı üçün hazırlıq görür. Şaxtaya qarşı heyvanını qoruyan heyvandar mal-qaranın yerini-yurdunu tarazlayır. Və beləcə, qışı da, yayı da işsiz keçmir təsərrüfat adamının. Elə məhz buna görə onlara zəhmət adamı deyirlər.

Bu gün onların günüdür, alın təri ilə torpağı qurumağa qoymayan insanların, bir dən buğdanı sarı kəhrəba dənizinə çevirib təknəmizə isti çörək gətirənlərin, qədim yurdun ucsuz-bucaqsız zəmilərində sürülər, ilxılar bəsləyib, bağlarında saf meyvələr, tarlalarda təbii tərəvəzlər yetişdirib süfrəmizi bol nemətlə bəzəyən zəhmətkeşlərin.







**Ramiyə ƏKBƏROVA**

## Şuşada Naxçıvanın sağlamlıq turizmi potensialı və turizm məhsulları nümayiş etdirilib



Oktyabrın 28-29-da Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Şuşa şəhərində "Azərbaycan sağlamlıq turizmi konfransı: inkişaf imkanları" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru və əməkdaşları, eləcə də sağlamlıq turizmi üzrə ixtisaslaşmış Duzdağ Müalicə Mərkəzinin və Darıdağ Arsenli Su Müalicə Mərkəzinin nümayəndələri də iştirak ediblər.

Türkiyə, Rusiya, İsveçrə, Çex Respublikası, Malayziya, Qazaxıstandan olan mütəxəssislərin də iştirak etdiyi tədbir sağlamlıq turizmi sektorunda mövcud qabaqcıl təcrübələrin araşdırılması və Azərbaycan üçün inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr olunub.

Konfrans ərzində sağlamlıq turizmi üzrə unikal məhsulların nümayişi üçün "Sağlamlıq turizmi sənaye sərgisi" təşkil olunub. Sərgidə 2 stenddə muxtar respublikanın sağlamlıq turizmi potensialı və turizm məhsulları konfrans iştirakçılarına nümayiş etdirilib və iştirakçılara ətraflı məlumat verilib. Sərgi iştirakçılara Azərbaycanın və Naxçıvanın sağlamlıq turizmi sahəsindəki imkanlarını daha yaxından tanımaq imkanı verib.

Daha sonra konfrans öz işini panel sessiyalarla davam etdirib.

## Təhsilin İnkişafı Fondunun nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində görüş keçirib

*Oktyabrın 29-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində Təhsilin İnkişafı Fondunun və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin nümayəndələri ilə görüş keçirilib.*



Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov və hər üç qurumun təmsilçiləri iştirak edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov ölkə başçısının Sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda təhsil sahəsində nəzərdə tutulan və son dövrlərdə proqrama uyğun həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb. Qeyd olunub ki, Elm və Təhsil Nazirliyi ilə birgə ölkə üzrə mərkəzləşmiş qaydada müəllimlərin sertifikasiya prosesi və müəllimlərin işə qəbulu üzrə müsabiqəsi, həmçinin direktorların işə qəbulu və digər müsabiqələr olub, məktəbəqədər təhsil müəssisələrində uşaqların qeydiyyatı elektron sistem üzərindən ölkə üzrə mərkəzləşmiş qaydada həyata keçirilib.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov təmsil etdikləri qurumların fəaliyyəti və əməkdaşlıq perspektivlərindən danışıblar.

Görüşdə hər iki qurumla əməkdaşlığın genişləndirilməsi, naxçıvanlı şagirdlərin olimpiada nailiyyətlərinin artırılması, ali təhsil müəssisələrində ingilis dili müəllimlərinin bilik və bacarıqlarının artırılması, IELTS imtahanının təşkili, məktəblərdə peşə təmayüllü siniflərin formalaşdırılması, peşə təhsili müəssisələrində və ümumtəhsil məktəblərində birgə monitorinqlərin təşkili, dövlət qulluqçularının peşə hazırlığının yüksəldilməsi və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

Sonra qonaqlar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının ticarət nazirliyi arasında imzalanmış "Naxçıvan Muxtar Respublikasına İnteraktiv Təhsil Yardımı" layihəsi çərçivəsində yaradılan data mərkəzi və "Telekonfrans" otağı ilə tanış olublar.

Daha sonra nümayəndə heyəti Heydər Əliyev Muzeyində olub.



## Naxçıvan cüdoçuları İğdırdan medallarla geri dönüb

İğdır şəhərində Türkiyə Cüdo Federasiyasının İğdır regional bölməsi tərəfindən "İnkişaf düşərgəsi və dostluq yarışması" layihəsi çərçivəsində cüdo üzrə beynəlxalq yoldaşlıq görüşləri keçirilib. Yarışda Van, Hakkari, Ərzurum, Ağrı və Qarsla yanaşı, Naxçıvan Muxtar Respublikasını təmsil edən komandalar (Naxçıvan, Şərur, Culfa) da iştirak edib.

150 idmançının qatıldığı yarışda muxtar respublika idmançıları 6-sı qızıl, 11-i gümüş və 7-si bürünc olmaqla, ümumilikdə, 24 medal qazanıblar.

Təmsilçilərimizdən ən yaxşı nəticələrə Ləman Bağırova, Məhəmməd Məmmədov, Yusif Əsədli, Davud Məmmədzadə, İsmayıl Şükürlü, Sadiq Rzayev öz yaş və çəki dərəcələri üzrə birinci olmaqla nail olublar. Digər təmsilçilərimiz müxtəlif əyarlı medallar əldə ediblər.

## "Şəhərsalma və memarlıq irsi" adlı sərgi-müsabiqə keçirilib





Oktyabrın 29-da Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş "Şəhərsalma və memarlıq irsi" adlı sərgi-müsabiqəsi keçirilib. Müsabiqənin keçirilməsində məqsəd memar və dizaynerlərin bu yerlərin tarixini, memarlıq elementlərini və irsini müasir tələblərə uyğunlaşdıraraq əsərləri ilə ictimaiyyətə tanıtmaqları, bacarıqlarını və ideyalarını üzə çıxarmaq olub.

Tədbirdən öncə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri və əməkdaşları Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Sərgi-müsabiqədə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri İlqar Sadıqov, Naxçıvan Memarlar Birliyinin sədri Heydər Əhmədov və Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov Naxçıvanın tarixi-memarlıq ənənələri və muxtariyyətinin 100 yaşı olan qədim diyarımız barədə fikirlər söyləyiblər.

Sonra təqdim olunan əsərlərə baxış keçirilib, 3 nominasiya üzrə təqdim edilən əsərlər 4 nəfər münsif heyəti tərəfindən qiymətləndirilib.

Sonda qaliblər seçilərək hədiyyələrlə mükafatlandırılıblar.

# Sağlamlıq imkanları məhdud uşaqlarda dulusçuluğa maraq yaradılır



*Ölkəmizdə dulusçuluq sənətinin çox qədim tarixi var. Mütəxəssislər bu sənətin yaranmasını Neolit dövrünə aid edirlər. İlk orta əsrlərin sonlarından başlayaraq dulusçuluq sənəti özünün yüksək inkişaf mərhələsinə gəlib çatıb. Həmin dövrlərdə saxsı qabların yayılması arealı Azərbaycanın, demək olar ki, bütün yaşayış məskənlərini əhatə edirdi. Bunu da arxeoloji qazıntılar zamanı ölkəmizin müxtəlif ərazilərindən tapılan dulusçuluq məmulatları – küp, səhəng, dolça, bardaq və digər saxsı nümunələri təsdiq edir.*

Bəşəriyyətin ilk və ən dəyərli nailiyyətlərindən biri də keramikanın kəşf olunmasıdır. Əvvəllər sənətkarlar gil qabları əllə ri ilə hazırlayırdılar. Sonralar sadə formalı dulus çarxı meydana çıxdı.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində aplikasiya dərnəyində çalışan Püstə Əliyeva söhbət zamanı vurğuladı ki, 33 ildir, dərnək rəhbəri kimi fəaliyyət göstərir. Son 7 ildə isə daha çox sağlamlıq imkanları məhdud uşaqlarla çalışır. Sağlamlıq imkanları məhdud uşaqların valideynləri uşaqlarının cəmiyyətə qarışmasını, inkişaf etməsini, asudə vaxtının səmərəli keçməsini istəyirlər. Təbii istəkdir. Onlar da çalışırlar ki, valideynlərin istəklərinə dəstək olsunlar. Öyrəndik ki, Püstə müəllimin qrupunda 16 uşağın 14-ü sağlamlıq imkanı məhdud uşaqdır. Xanım Heydərova, Xəzəl İsmayılova, Təranə Əhmədli, Tofiq Həsənov və başqaları bu sənətə böyük maraq göstərirlər.





Püstə müəllim deyir: "İlk zamanlar dərnəyimizdə, əsasən, rəngli kağızlarla, düyü ilə əl işləri hazırlayırdıq. Düşündüm ki, qayçı ilə iş görmək uşaqlar üçün təhlükəlidir. Muncuqla və dulusçuluqla məşğul olmağa başladıq. Uşaqlara, əsasən, mövzunu özümüz seçirik, sərgilərimiz olanda isə mövzu verilir, üzərində işləyirik. Daha çox nağıl obrazları, Zəfər bayramı, Azərbaycan Bayrağı, butalar və sair mövzularda işləyirik. Dulusçuluq sənətində də eləcə".

Püstə müəllim uşaqların əl işlərinin sərgi-satışlarının təşkilindən də bəhs etdi: "Bu sərgilər uşaqları daha da həvəsləndirir, hər bir tədbirdə, sərgidə iştirak etmək istəyirlər. Biz də əlimizdən gələn dəstəyi göstəririk".

Sağlamlıq imkanları məhdud uşaqların gələcək həyatlarında onlara bir işıq yolu açıb, qayğı ilə yanaşmalıyıq. Evdə valideynləri, cəmiyyətdə isə biz onları bu keşməkeşli həyatda yalnız buraxmamalı, yanlarında olmalıyıq.

**Günay HACIYEVA**











## Yurdumuzun nemətləri

# Payızın rəngi, sağlığımız, dağların neməti

**Uşaq ikən payız fəsli gələndə qüssələnirdim. Düşünürdüm ki, yaşıllığın qənimidir. Güllər, çiçəklər solacaq, yaşıllıqdan əsər qalmayacaq. Sən demə, təbiət ən gözəl rəngini payızda alır. Nahaq yerə bu fəsli "qızıl payız" adlandırmırlar. Bu rəng dəyişimi ilə deyil, həm də bu torpağın yetişdirdiyi rəngbərəng meyvələri ilə əlaqədardır.**









Biçənəkli bir xanıma "Zirinc indi yetişərmi?" – deyə sual edirəm. "Yemişan yetişəndə zirinc də yetişir", – deyə cavab verir. Sentyabrın sonlarından başlanan payız mövsümündə meyvələrin bir qismi eyni vaxtda, digərləri ardıcıl şəkildə yetişir. Onlardan çeşid-çeşid məhsullar hazırlanır – mürəbbələr, kompotlar, meyvə quruları və sair.

Bir də təbiətin öz bəxşişi var insanlara. Naxçıvan dağlarının yetişdirdiyi zirincin, həmərsinin, sarı, qırmızı alçanın, yemişanın, sumağın əvəzi olmaz.

Turşməzə dada sahib, yeməklərdə və salatlarda istifadə olunan sumaq, əsasən, Ordubad dağlarında yetişir. Sentyabr ayının son günlərində toplanır, təmizlənib xırdalanır, qurudulur. Antioksidant təsirə malik sumaq iştahaaçıcı və yeməklərə xüsusi dadverici nemət kimi də istifadə olunur. Maddələr mübadiləsini nizamlayır. Faydasını bildikləri üçün yetişdiyi zaman insanlar onun bir ədədini də torpaqda qoymaz.

Yemişan, həmərsin, zirinc, alça və çöl armudunun məskəni isə Şahbuz sayılır. Digər bölgələrimizdə yetişsə də, ölçüsünə, rənginə, dadına görə Şahbuz dağlarının yetişdirdiyi bu meyvələr fərqlənir. Müşahidələrim onu deməyə əsas verir ki, saflığı, dadı, görkəmi, vitaminliliyi baxımından da Şahbuz bağlarında yetişən meyvələr daha üstündür. Bu da, təbii ki, ərazinin təbii coğrafi şəraiti, iqlimi ilə sıx bağlıdır.

Dağlara qırmızı rəng bəxş edən zirinc insan orqanizmi üçün olduqca faydalı sayılır və mətbəximizin ayrılmaz ədviyyatlarındandır. Turşməzə dada sahib zirincin mürəbbəsi və kompotu da hazırlanır. Zirinc tərkibində olan 19 müxtəlif amin turşusu ilə əzələlərin möhkəmlənməsinə yardım edir, orqanizmdən artıq yağların xaric olmasını sürətləndirir. II dərəcəli şəkərli diabet xəstələrinə hər gün zirinc qəbul etmələri tövsiyə olunur. Zirinc qanda xolesterolun miqdarını da azaldır. Həkimlər aktiv həyat tərzi yaşayaraq özünü gün ərzində yorğun və halsız hiss edən insanlara zirincin çayını içməyi tövsiyə edirlər.

Faydalarına görə zirincdən geri qalmayan yemişanın da növləri çoxdur. Təbii ürək dərmanı hesab olunan yemişandan hazırlanan mürəbbə və kompot da faydalı sayılır. Rəngi sarıdan tünd-qırmızıya qədər dəyişən yemişan giləmeyvəsi həzm problemləri, ürək çatışmazlığı və yüksək qan təzyiqi üçün bitki mənşəli vasitə kimi istifadə olunur. Təzyiqi olanlar üçün tünd-qırmızı rəngli yemişan məsləhət görülür.

Həmərsin bitkisinə gəlincə onu dəyərləndirən zəhmətkeş kənd adamları toplayaraq qurudur, doşabını, kompotunu hazırlayır. Batabat ərazisində geniş yayılan bu bitkinin yaz aylarında yığılan çiçəklərindən mürəbbə bişirilir. Tərkibindəki zəngin C vitamini sayəsində həmərsin immunitet sistemini gücləndirir, bədəni infeksiyalara və soyuqdəymələrə qarşı gücləndirməyə kömək edir. Qurudulub qış boyunca çay dəmlənməsində istifadə olunan həmərsin ürək-damar xəstəlikləri üçün faydalıdır.

Meşə alçasından, dağ armudundan turşular, əzmələr, kompotlar hazırlanır. Dağlardan min bir əziyyətlə bu meyvələri toplayıb Naxçıvan bazarlarını zənginləşdirən zəhmət adamlarının əməyini hər mənada qiymətləndirmək lazımdır. Onlar üçün bu həm gəlir mənbəyidir, həm də əlimizi sağlam, faydalı məhsullara çatdırır. Mövsüm dəyişkənliyi dövründə bir sıra xəstəliklər baş qaldırır. İmmuniteti gücləndirmək, orqanizmi qışa hazırlamaq üçün təbiətin bəxşişi olan bu meyvələri qədərində tükətmək mütləqdir. Dağlardan, bağlardan gələn rəngbərəng meyvələri süfrənizə, menyunuza daxil edin ki, sağlığınızı qoruya biləsiniz. Payız fəsillərin qızıl dövrüdür. Bu, yarpaqların saralması ilə deyil, zəngin vitaminli meyvələrin bu fəsildə yetişməsinə də bir işarədir. Unutmayın ki, min dərd varsa, min bir də dərmanı var. O dərman təbiətdədir!

**Ruhiyyə RƏSULOVA**

# Sədərək bağlarının alyanaq üzümü



Naxçıvan torpağında ən dadlı, şirin üzüm Sədərəkdə yetişir. Təsadüfi deyil ki, sovetlər dönəmində böyük şərab zavodlarımızdan biri bu bölgədə inşa olunub. Min ildən çox tarixi olan üzümçülükdə sədərəklilərin özünəməxsus becərmə üsulu vardır. Sədərəkdə bu gün də üzümçülük inkişaf etdirilir, yeni üzüm bağları salınır, qədimdən qalan üzüm sortları isə calaq yolu ilə artırılır. Rayon sakinləri gəlirli sahə olan üzümçülükdən, necə deyərlər, dördəlli yapışıblar. Bu sahə ilə məşğul olanlar həm öz təsərrüfatlarında çalışıb gün-güzəranlarını yaxşılaşdırır, həm də daxili bazara töhfələrini verirlər.

Üzümçülük gəlirli sahə olduğu üçün bu təsərrüfat növünə ildən-ilə maraq da artıb. Sədərəkdə olan üzüm bağının şöhrəti ilə bağlı 53 ildir ki, üzümçülüklə məşğul olan Muxtar Nəsirovla həmsöhbət olduq. Kənddə hamı onu təcrübəli üzümçü kimi tanıyır. Üzüm bağı salmaq istəyənlər mütləq onunla məsləhətləşirlər. Müsahibim deyir: "Rayonda 50-dən çox üzüm növü var. Buradakı üzüm bağlarında arxlar dərin olur. Tənəklər də bir-birindən 2 metr məsafədə əkilir. Rayonda bu üsulla əkilən, yaşı 100-dən yuxarı olan bağlar var. Yeni bağlar da salırıq ki, üzümün ayağı torpağımızdan çəkilməsin. Bağlarda "Teyti", "Nəbi", "Xəlilli", "Hüseyni", "Təbrizi", "Mərəndi", "Şəfiyi", "Mələyi", "Əsgəri", "Xatını", "Xangörməz", "Aldərə", "Qara əsgəri", "Ağ, qırmızı", "Sarı və qara kişmişlər", "Hənəqirna", "Qoçbaşı" kimi dadı damaqdan getməyən üzüm növləri süfrələrimizin bəzəyidir. Bunların arasında elə bil, Uca Yaradan "hənəqirnanı" Sədərək torpağı üçün yaradıb. Gilələri az qala ərik yekəlikdə olan "hənəqirna"nı qış aylarına kimi saxlamaq olur. Bu sortdan qurudulan mövücün sorağı hələ qədim zamanlarda adla deyilib. Bal kimi olur, yeyəndə gözə işıq, qola qüvvət gətirir. "Hənəqirna"nın 100 kiloqramından ən azı 25 kiloqram mövüc hasilə gəlir".

Muxtar dayı onu da bildirir ki, üzümün qurudulub kişmiş və mövüc şəklində qışa tədarük olunması da minillik ənənəmizdir. Bunun üçün xüsusi ustalıq lazımdır. Üzümün açıq havada qurudulması üçün əlverişli iqlim şəraiti vardır.

Müsahibim onu da bildirir ki, Naxçıvanın iqlimi qışda çox sərt olduğundan bütün üzüm kolları payızda budanır, bükülür və torpağa basdırılır. Yazda bu tənəkləri vaxtında torpaqdan çıxarmaq lazımdır. Əgər bu iş düzgün aparılmasa, tənəklərə ziyan dəyə bilər. Dədə-babadan belə bir söz deyərdilər: "Elə ki bayram aşını yeyib qurtardın, şəhəri gün üzüm tənəkləri torpaqdan çıxarılmalıdır". Müsahibim üzümün saxlanma üsullarından da məlumat verərək bildirdi ki, bu sırada asma üsulu çox istifadə olunan qaydalardandır. Uzunluğu 1-2 metr, ağırlığı 2-10 kiloqram olan asmalar əl damında, zirzəmidə, evin tavanında asılır. Lakin bu üsulla saxlanan üzüm təzəliyini tez itirir və gilələr büzüşür. Rütubətin azlığından bəzən belə saxlanan üzüm kişmişə çevrilir. Üzüm rəflərdə, qutularda və başqa vasitələrlə sərilmiş vəziyyətdə də saxlanılır. Qablara ağac yonqarı, çiyid qabığı, dəniz otu, qum tökülür. Bu üsulla saxlanan üzüm məhsulu asma üsuluna nisbətən az soluxur, lakin çürüməsi çoxalır. Üzüm saxladığımız yerin sərin olması daha vacibdir. Digər bir üsulda söyüd və ya çəkil çubuqlarından hazırlanmış qələmlərə 8-10 salxım asırlar və bu qələmləri çardaqda, talvarda, yaxud anbarda kiçik çilləyə qədər saxlayırlar. Bu üsulla "Təbrizi" sortunu 6-7 ay saxlamaq mümkündür. Bu üzüm sortu yetişdikdən sonra 2-3 ay tənəyin üzərində saxlana bilər. Başqa bir üsul isə belədir ki, salxım aslandığı budaqla birlikdə kəsilərək qabda suya qoyulur və iylənməmək üçün ona bir qaşıq ağac kömürü əlavə edilir. Su olan qablar xüsusi tərəcələrdə maili vəziyyətdə qoyulur. Buxarlanmanı azaltmaq üçün qabın ağzı pambıqla örtülür. Bəzi sortlar, hətta suda kök əmələ gətirsə belə, salxım kütləsini itirmir. Muxtar dayı deyir ki, vaxtilə qonşu deyib suyumuzu, çörəyimizi əsirgəmədiyimiz mənfur ermənilər torpaqlarımıza göz dikəndə kənddəki üzüm bağları da ziyan görmüşdü. Amma ağızlarının payını verib yerlərinə qovandan sonra, şükür Allaha, bağımız-bağatımız da güllük-gülüstana çevrildi. Xalqımıza aid olan bir çox adət-ənənələri, nemətləri, meyvələri mənimsəməyə çalışan ermənilər bu bitkinin köklərini o vaxtlar qoparıb, öz ərazilərinə aparıb torpaqda bitirsələr belə Sədərək üzümünün dadını ala bilməyiblər. Çünki bu torpağın nemətləri də insanları kimi torpağına bağlı, vəfalıdır.

Bu gün düşmən gülləsinin bir addımlığında yaşayan sədərəklilərin torpağa bağlılığı onu sübut edir ki, onlar torpağı qoruduqları kimi əkib-becərməyi də bacarırlar. Bütün bunlar isə sərhəd bölgəmizin qədim üzümçülük ənənələrinin hələ min illər bundan sonra da davam edəcəyinə və nəsildən-nəslə ötürüləcəyinə sübutdur...

**Ramiyə ƏKBƏROVA**



# Kəlağayı əlvan, qıyqacı...

Kəlağayı gözəllik, ismət, ləyaqət, ehtiram, sədaqət rəmzi olmaqla yanaşı, özündə doğma yurdumuz Azərbaycanın qədim və şanlı tarixini, mədəniyyətini, adət-ənənələrini yaşadır. İpək sapdan toxunmuş, dördkünc formalı bu baş geyiminə bəzi yerlərdə “çarqat” da deyilir. Kəlağayı sənəti, əsasən, irsi olaraq nəsildən-nəslə ötürülür və ailə məşğuliyyəti hesab olunurdu. Kəlağayı tikmək və örtmək mədəni kimliyin, dini ənənələrin ifadəsi və ictimai birliyin simvoluna çevrilmişdir. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi kəlağayıçılıq mərkəzləri müxtəlif siyasi və sosial-iqtisadi səbəblər üzündən, xüsusilə də Rusiyadan daxil olan ucuz fabrik mallarının kustar karxana məhsullarını sıxışdırması nəticəsində mövqeyini qismət itirib.

Azərbaycan kəlağayılarının ən gözəl nümunələri hələ XIX əsrin ortalarından başlayaraq Paris, London, Sankt-Peterburq, Moskva, Tiflis və digər şəhərlərdə təşkil edilmiş beynəlxalq sərgilərə çıxarılmışdı. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da Parisdə keçirilən 9-cu iclasında Azərbaycan kəlağayı sənəti “Kəlağayı simvolizmi və ənənəvi sənəti” adı ilə “Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı”na daxil edilib.

Kəlağayıların rəngləri simvolik məna daşıyır və çox vaxt toylar, yas mərasimləri, gündəlik fəaliyyətlər və şənliklər kimi xüsusi sosial hadisələrlə əlaqələndirilir. Daha çox istifadə edilən təbii boyalar kimyəvi boyalardan fərqli olaraq parçaya daha dərin və davamlı rənglər verir, həmçinin sağlamlıq və ətraf mühit üçün daha təhlükəsizdir.

Xanımların gözəlliyinə rəng qatan, ulularımızdan bizə yadigar qalan, həm də bəşəriyyətin incisi statusunu qazanmış kəlağayılar əsrlər boyu müxtəlif naxışlar vasitəsilə tərtib edilirdi.

Onlardan sadə gül, budaqlı gül, ləçəkli payız gülü, dörd ləçəkli alça gülü və başqaları daha məşhur olub. Xalq arasında daha çox sevilən və kəlağayıların bəzənməsində istifadə edilən basmanaxış üsullarından biri də butalardır. Butalar forma etibarilə bir növ badama bənzəyir. Butanın mənasına gəlincə buta sözü, əslində, müqəddəs ağaclar, “həyat ağacı” hesab edilən sərv ağacının simvolik işarəsidir.

Kəlağayının orta əsrlərdə üzərinə vurulan buta naxışları həm də istehsalçının möhürü rolunu oynayıb. İstehsalçı sağ qolunu yumruq halında təbii boyaya saldıqdan sonra kəlağayının üstünə vururdu və həmin yumruq izindən kəlağayının hansı ustaya məxsus olduğu bilinirdi. Kəlağayıların üzərinə yumruqla vurulan buta forması zaman keçdikcə formalaşaraq təkmilləşdirilib və ənənə halını alıb.

Yaxın Şərq və Qafqaz xalqları arasında geniş yayılmış kəlağayılar ölçü və rəng cəhətdən də müxtəlif olur. Adətən, yaşlı qadınlar tünd, genişölçülü, gənc qadınlar isə ağ və əlvan rəngli kiçikölçülü kəlağayılar örtürlər. Bundan başqa, yaşlı qadınlar kəlağayını çalma, cavan qadınlar və qızlar isə örpək kimi istifadə edirdilər. Qadınlar yas mərasimində qara, toy mərasimində isə əlvan naxışlı kəlağayılar örtərdilər.

Milli-mənəvi dəyərlərin, mədəniyyətin, ümumilikdə, xalqa məxsus böyük sərvətin qorunub saxlanılması tarixən Azərbaycan ictimai təfəkküründə milli ideya səviyyəli, aktual məsələlərdən biri olmuşdur. Görkəmli Azərbaycan yazıçısı və ədəbiyyatşünası Mir Cəlal Paşayev “Bir gəncin manifesti” əsərində böyük əziyyətlə toxuduğu xalçanın – sənət incisinin əcnəbiyə qismət olmasını istəməyən Sona xalanın dili ilə demişdi: “İtə ataram, yada satmaram”. Bu yanaşma, əslində, qəlbi Vətən eşqi ilə döyünən böyük Azərbaycan ziyalısının xalqın maddi-mənəvi sərvətlərinə necə böyük ehtiramla yanaşmasının, milli irsin qorunub saxlanılması vacibliyinin önə çəkməsinin əlamətidir. Bu bizik, tarixi köklərə və zəngin adət-ənənələrə malik Azərbaycan xalqı. Heç bir xalqın mədəni irsinə göz dikməyən, yalnız öz milli dəyərlərinə söykənərək tarix yaradan Azərbaycan xalqı. Mövzumuz kəlağayı idi. Milli geyimlərimizin ayrılmaz tərkib hissəsi – kəlağayı. Bu da danılmaz reallıqdır ki, hər dövrün öz tələbi və geyim tərzi var. Düzdür, indi baş örtüyündən o qədər də geniş istifadə olunmur. Lakin bu da bizə əsas vermir ki, milli geyimlərimizə, kəlağayıya laqeyd yanaşaq.



Bu gün milli geyimlərimiz həm də muzey ekspozisiyalarını bəzəyir. Folklor kollektivləri, muğam ifaçıları, aşıqlar milli geyimlərimizin daşıyıcılarıdır. El şənliyimiz – Novruz bayramında milli sərvətlərimizin, həmçinin milli geyimlərimizin sehrinə düşürük. Deməli ki, toy şənliklərinə – xınayaxdı mərasimlərinə də artıq milli geyimlərimiz daxil olmaqdadır. Bu, çox təqdirəlayiq haldır. Lakin biz bununla kifayətlənməməliyik. Mövzu əgər kəlağayıdırsa, sözümüz analaradır: Qızları gəlin köçürdüyünüz zaman cehizlik əşyalar içərisində kəlağayını Azərbaycan qadınının sədaqət, ismət, gözəllik simvolu kimi hədiyyə etməyi də unutmayın.

✍ **Aygün RÜSTƏMOVA**

# Qum dənələrindən ortaya çıxan gözəlliklər

İnsan təxəyyülü ağlımıza gəlməyəcək dərəcədə zəngindir. Təbii ki, bu hər kəsə şamil edilmir. Bəzən adi taxta parçası kimi gördüyümüz məmulatdan necə mükəmməl əl işlərinin yaradıldığının şahidi oluruq. Eləcə də bugünkü yazımızda bəhs edəcəyimiz, çoxumuzun adi qum deyə baxdığı, lakin incə ruhlu, yaradıcı insanların isə bənzərsiz sərvət kimi gördüyü qum dənələrindən yaradılan möhtəşəm rəsmlər kimi.




Qum sənəti XX əsrdə formalaşan maraqlı, eyni zamanda təqdimat texnikasına görə fərqli bir sənətdir. Dünyanın bir çox yerində yayılan və son dövrlərdə ölkəmizdə də maraqla qarşılanan bu sənətin əsasını rəsm və musiqinin vəhdəti təşkil edir. Qumla rəsmçəkmə sənətinin əsası ABŞ, Avstraliya və Latın Amerikası ölkələrinin sakinləri tərəfindən qoyulub. İlk dəfə animasiyalı film olaraq amerikalı rəssam Karoline Leaf tərəfindən nümayiş etdirilib. Son dövrlər ölkəmizdə də bu sahəyə maraq göstərilir. Muxtar respublikamızda da bu sənətlə məşğul olunmağa başlanılıb. Bununla bağlı ətraflı məlumatı Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilmiş Qum sənəti dərnəyinin müəllimi Həbib Allahverdiyevdən aldıq: “Qum sənəti işıqlandırılmış şüşə üzərinə qumun səpilməsi ilə çəkilən təsvirlərdir. Bu sənət növü yaradıcılıq mərkəzində 2019-cu ildən tədris edilir. Artıq 5 ildir ki, bu sənətlə məşğulam.Yaradılan təsvirlər qalıcı olmadığı üçün, adətən, şou xarakteri daşıyır. Yəni hər hansı bir tədbirdə rəssam mövzuya uyğun müxtəlif nəqledici, bir-birini tamamlayan təsvirlər işləyir”.



Bu sənət üçün istifadə edilən qumun müxtəlifliyindən bəhs edən müsahibim deyir ki, adətən, dəniz qumundan istifadə edirik. Çünki dəniz qumu yüngüldür və şüşə üzərinə səpilməndə təsviri daha asan çəkmək olur. Otaq isə qaranlıq olanda işlənən təsvirlər daha çox diqqət cəlb edir. Bəzən rəngli qumlardan da istifadə edilir: “Dərnəkdə proqrama əsasən təsviri incəsənətin mənzərə, portret, məişət, natürmort janrlarında müxtəlif təsvirlər çəkilir, eyni zamanda plakattipli kompozisiyalar işləyirik. Bu sənətin incəliklərindən biri musiqi ilə vəhdətdir. Musiqi ilə əllərin hərəkəti bir-birini tamamlayır və çəkilən təsvir gözoxşayan olur. Şagirdlər, rəsm həvəskarları asudə vaxtlarında bu sənət növü ilə məşğul olurlar. Onlar, əsasən, öz düşüncələrinə, istəklərinə uyğun təsvirlərə üstünlük verirlər. Adətən, gül, çiçək, mənzərə, müxtəlif cizgi film qəhrəmanlarının rəsmləri işlənir. Tarixi günlər və bayramlar münasibətilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil edilən tədbirlərdə mütəmadi çıxış edir, proyektor vasitəsilə görüntünü səhnəyə əks etdirməklə mövzuya uyğun təsvirlər işləyirik ki, bu da işimizi daha maraqlı edir. Həmçinin müxtəlif rayonlardan şagirdlər mərkəzdəki müsabiqələrdə iştirak edərək öz qabiliyyətlərini ortaya çıxarmış olurlar”.

Bəhs etdiyimiz bu yeni sahəni öyrənməyə çoxlu məktəblinin gəldiyini gördük. Qənaətimiz belə oldu ki, müxtəlif sənət sahələri üzrə tanınmış sənətkarlar diyarı olan Naxçıvanda qum sənəti sahəsində də bacarıqlı sənətkarlar yetişəcək.

✍ **Türkanə ƏSƏDOVA**

## İtmişdir

Musayev Sahib Mütəllim oğlunun adına olan Şərur şəhəri, M.Müşfiq 15/12 ünvanında yerləşən mənzilin 615 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Səfərov Fərrux Həsrət oğlunun adına olan AD-0044146 seriya nömrəli həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm kənd sakini Həsənov Elvin Vahid oğlunun adına olan A-012829 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Hacıvar kənd sakini Qasımov Əliəddin Xəlil oğlunun adına olan JN-079 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ələkli kəndində yaşamış Abbasov Zahir Hüseyn oğlunun adına olan JN-8A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-56 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Aralıq kənd sakini Talıbov Vüsal İlqar oğlunun adına olan JN-1 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kəndində yaşamış Rəhimova Əsmər Kərim qızının adına olan JN-279B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və Rəhimov Abdulla İsa oğlunun adına olan JN-760A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi, bina 5 (A bloku), mənzil 3-ün 21 iyun 2012-ci il tarixli 15435 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Aralıq kənd sakini Həsənov İlham Yunis oğlunun adına olan JN-45 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Cəfərov Həsən Cəfər oğlunun adına olan JN-9A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 325

Nömrəyə məsul: Əli Cabbarov, Bülbül Quliyeva, Aidə İbrahimova
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.